# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№48 (3339) 24 Dekabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik


## ADP Prezidentə müraciət etdi

ANA XƏBƏR



**"Gold Məkan" sakinlərin evini başlarına uçurur**

# Rusпərəstlərin Qərblə yaxınlaşmaq təklifi

Və yaxud Azərbaycanla Qərb ölkələri arasındakı "gərginliyin" gerçək səbəbləri...



## İran niyə "sönüb"?

5

GÜNÜN NƏBZİ

Baxış

## Özünü axtaran adam



Rasim Qaracanın "Zülmətdə alatoran" adlı avtobioqrafik romanı haqda

3

Ölkə

## Sahil Babayev nə üçün AQTA-nı hədəfə gətirdi?

Əhaliyə xəstə heyvanların verilməsinə görə AQTA məsuliyyət daşıyır?

12

Xəbər

## DSX əməkdaşından Elçin Quliyevə müraciət

O, general-leytenant Araz Məmmədovdan şikayətçidir

2

Toplum

## Ögey qardaşı adına bahalı maşın aldı, kredit borcunu ödəmir...

Masazır sakini Əhmədli Əhməd Əhməd oğlu qardaşından şikayətçidir

7

Sərbəst

## "Azercell"in növbəti "2 AZN-lik limit oyunu"

Mobil operatorlar niyə abunəçilərin cibinə girirlər?

15

LAYİHƏ

## "Valideynlik öyrənilməsi çətin "sənət"lərdən biridir"



Dilarə Atakişiyeva: "Sağlam düşüncəli uşaq böyütmək üçün ailə mühiti sağlam olmalıdır"

11

Cəmiyyət

## Qəribə əhvalat



Ümidin ölüm xəbəri, ədalətin qeybə çəkilməsi...

4

Toplum

## AAAF rəhbərliyi vergidən necə yayınır

Asif Lətifov: "Almadığım maaşa görə məndən vergi və sığorta haqqı tutulub"

Abşeron rayonu, Xırdalan şəhəri, 27-ci məhəllə, ev 2 B, mənzil 40-da yaşayan Lətifov Asif Aydın oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Saytımız vasitəsilə Prezident İlham Əliyevə, DTX rəisi Əli Nağıyevə və Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə müraciət edən şikayətçi Xırdalanda yerləşən AAAF Yaşayış Kompleksinin vəzifəli şəxslərindən şikayətçidir.

7

Ölkə

## Gədəbəy sakinlərindən ölkə başçısına müraciət

"Gədəbəyin dağ kəndlərində də kilsələr tikilsin, biz də qaz üzü görək"

Gədəbəy rayonunun Kəlaman, Hacıalılar, Herkinaz, Kiçik Qaramurad, Daryurd kənd sakinləri tərəfindən Hurriyyet.az saytına şikayət daxil olub. Sakinlər saytımız vasitəsilə Prezident İlham Əliyevə müraciət edirlər:

"Cənab Prezident!

Sizin hər çıxışınızdan ilham alıb, "bir gün düzələr" deyib, ümidlə yaşayırıq. Biz Gədəbəy rayonunun Kəlaman, Hacıalılar, Herkinaz, Kiçik Qaramurad, Daryurd kənd sakinləri olaraq təklif edrik ki, yuxarıda adlarını qeyd etdiyimiz kəndlərdə yəhudi kilsəsi tikilsin.

12

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№48 (3339) 24 Dekabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# Ölüyə Quran oxumağın faydası varmı?



## İlahiyyatçı Tural İrfan: "bir şərtlə ki, oxunan surələr tərcümə edilsin, mənası anladılsın, qulaq asanlar ibrət ala bilsinlər..."

**Ölüyə Quran oxutdurmaq düzgündürmü? Müsəlmanlar arasında bu məsələyə müxtəlif yanaşma var. Bəziləri düşünür ki, boş şeydir, ölü hara, quran oxumaq hara? Bəzi insanlar deyir ki, hədislərdə bu haqda məlumat yoxdur. Böyük əksəriyyət isə bunun vacib olduğunu bildirir.**

Məsələ ilə bağlı "Hürriyyət"ə danışan ilahiyyatçı Tural İrfan bildirdi ki, Quran insanların hidayət olunması, oxuyub, anlayıb iman gətirməsi üçün nazil olub: "Lakin Quranın digər funksiyaları da var. Ümumiyyətlə, ibadət məqsədilə oxuna bilər. Eyni zamanda, vəfat etmiş müsəlmanların ruhuna hədiyyə etmək üçün də oxuna bilər. İlahi kitabı dünyəvi kitablardan fərqləndirən bir cəhət də budur. Bəziləri Quranı bəşəri kitab səviyyəsinə endirib, onun müqəddəsliyini inkar edir, hədislərlə eyni səviyyədə tuturlar. Ancaq Quranın özündə də bu kitabın hətta möminlərə mənəvi şəfa, rəhmət, ruzilәndirən olduğu deyilir.

Doğrudur, Quran tibb kitabı, iqtisadiyyat dərsliyi, astronomiya, yaxud tarix kitabı deyil. Amma bu sahələri də özündə ehtiva edən ilahi əsərdir. "Ölüyə Quran oxumaq" bəzən ifadəsi yanlış anlaşılır. Radikal düşüncəli, sonradan xarici qüvvələr tərəfindən İslamı parçalamaq məqsədi ilə yaradılmış bəzi cərəyanlar manipulyasiya edərək, ölünün ruhuna bağışlanmaq üçün oxunan Quranı guya sanki ölü eşitsin, inansın deyə oxunurmuş kimi qələmə verərək, bunu da inkar edib, məsxərəyə qoyurlar. Bu, tamamilə yanıltmacdır".

İlahiyyatçının fikirncə, kimsə ölmüş adama ona görə Quran oxumur ki, ölü eşidib iman gətirsin: "Quran bütün aləmlər üçündür. Bunu Allah özü həmin kitabda deyir. Ölülər aləmi də bu aləmlərdən biridir. Ruhlar yaşayır və eşidir, duyur. Çünki İslamın mahiyyəti insanın ruhən ölmədiyinə inamdır ki, axirətdə hamı diriləcək, hesab verəcək, ruhlara yenidən bədən geydiriləcək. Quranda şəhidlər barədə Allah buyurur ki, onlar ruzilənirlər. Sual yaranır: ölmüş adamlar necə ruzilənir? Demək, mənəvi qidadan söhbət gedir ki, onlara oxunan rəhmətdən, Qurandan, savab işlərdən və Allahın onlara əta etdiyi axirət nemətlərindən ruzilənirlər".

Tural İrfanın sözlərinə görə, ölən adam can verərkən müxtəlif Quran surələri oxunub, ona təlqin edilə bilər ki, dünyadan imanlı köçsün: "Vəfat edəndən sonra da oxuna bilər ki, toplaşan insanlar dinləyib imanları yenilənsin, ölümdən ibrət alsınlar, təsirlənsinlər, axirəti yada salsınlar. Eyni zamanda, oxuyan şəxs Quran oxumaqdan hasil olan savabı mərhumun ruhuna bağışlayıb, hədiyyə edir ki, bu da ölü üçün savabdır.

Quranı natəmiz yerlər istisna olmaqla, istənilən yerdə oxumaq olar. Yəni məzarlıqda da, yas məclisində də, toyda da, nişanda da, elçilikdə də... Belə bir qadağa yoxdur ki, ölü olan yerdə, yaxud məzarlıqda Quran oxumaq olmaz. Əksinə, Quran insanlara ölümü, axirəti, öldükdən sonra dirilməni yada saldığı üçün, elə əsasən yas yerlərində, qəbir üstündə oxunmalıdır ki, adamların ruhunu silkələsin, dünyanın fani olduğunu xatırlatsın. Fəqət bir şərtlə ki, oxunan surələr tərcümə edilsin, mənası anladılsın, qulaq asanlar ibrət ala bilsinlər. Doğrudur, tərcümə olunmasa belə, ondan hasil olan savabın hədiyyə edilməsi də var. Amma mənası anladılsa, dirilər də ibrət alar, öyüd götürər".

> Quranı natəmiz yerlər istisna olmaqla, istənilən yerdə oxumaq olar. Yəni məzarlıqda da, yas məclisində də, toyda da, nişanda da, elçilikdə də... Belə bir qadağa yoxdur ki, ölü olan yerdə, yaxud məzarlıqda Quran oxumaq olmaz. Əksinə, Quran insanlara ölümü, axirəti, öldükdən sonra dirilməni yada saldığı üçün, elə əsasən yas yerlərində, qəbir üstündə oxunmalıdır ki, adamların ruhunu silkələsin, dünyanın fani olduğunu xatırlatsın...

**Aynurə MUSTAFAYEVA**

## Əyləncə səhifəsi

# Ölkədə enerji kəsildi, prezident əhaliyə "isti geyinin" deyə müraciət etdi

**İran prezidenti ciddi enerji böhranı səbəbindən işıqsız oturan əhaliyə yeni müraciətlə özünü biabır edib.**

İran dəhşətli enerji böhranı ilə üz-üzədir, bunun fonunda prezident Məsud Pezeşkian isitmə sistemini yandırmaq əvəzinə "isti geyinmək" zərurəti ilə bağlı bəyanatı əhali arasında hiddət fırtınasına səbəb olub. Sosial şəbəkələrdə prezidentin şərhi hakimiyyətin vətəndaşların real ehtiyaclarından təcrid olunmasının simvolu adlandırılıb.



Qeyd edək ki, ölkədə enerji böhranı sərt qış səbəbindən daha da pisləşib. Milyonlarla iranlı elektrik enerjisinə etibarlı çıxışdan məhrumdur, məktəblər və dövlət idarələri bağlanıb, küçələrdə və şəhərlərarası yollarda işıqlar söndürülüb. Vəziyyət təcili tədbir görülməsini tələb etsə də, Pezeşkian evlərdə temperaturun iki dərəcə aşağı salınması tövsiyəsi istehza və tənqid hədəfinə çevrilib.

Sosial şəbəkələrdə qəzəblənən istifadəçilər "İstilik lazım olanda prezident əlavə sviter geyinməyi təklif edir" yazır.

Bundan əlavə, elektrik stansiyalarının istismarı üçün dizel yanacağından istifadənin artması böyük şəhərlərdə havanın kritik səviyyəyə çatmasına səbəb olub və bu, əhalinin narazılığını daha da artırıb.

Özünü "mötədil" qüvvələrin təmsilçisi kimi qələmə verən Pezeşkian əhalini qənaət etməyə çağırmaqla vəziyyətdən çıxmağa çalışır. Lakin onun sözləri yalnız ictimaiyyətin qəzəbinə səbəb olub. Çoxları bu açıqlamanı hakimiyyətin reallıqla əlaqəni itirdiyinin və əhalinin aktual problemlərini həll edə bilmədiyinin təsdiqi kimi qiymətləndirir.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# "Gold Məkan" tikinti şirkəti sakinlərin evini başlarına uçurur

## İradə Abdullayeva: "Əşyalarım mənzildə ola-ola, qanunsuz olaraq evimi sökürlər"

**Nərimanov rayonu, Faiq Yusifov küçəsi, bina 43-də yaşayan sakinlər tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Sakiblər "Gold Məkan" tikinti şirkətinin rəhbər şəxslərindən şikayət edirlər. Onlar iddia edirlər ki, Nərimanovda bir neçə binanı qanunsuz olaraq sökərək, yerində çoxmənzilli bina inşa etmək istəyən "Gold Məkan" MMC-nin rəhbərliyi sakinlərin narazılığını diqqətə almır:**



"Vəziyyət o həddə çatıb ki, mənzilimizə daxil ola bilmirik. Dəfələrlə Nərimanov rayon İcra Hakimiyyətinin rəsmi şəxslərinin qəbulunda olmuşuq. Lakin icra başçısı qanunsuz aparılan tikinti işini dayandırmır.

Bütün əşyalarımız mənzildədir. "112" qaynar xəttinə dəfələrlə zəng edirik. Lakin heç bir dövlət qurumu bizim şikayətimizə baxmır. Hətta binada yaşan 1-ci qrup əlil qadını da nəzərə almırlar. Binaya daxil olub əşyalarımızı yığmaq istəyirik, lakin binanı başımıza uçururlar.

Bakı Şəhəri Nərimanov Rayon Məhkəməsinin qanuni qüvvəyə minmiş 16(005)- 84/2024 saylı, 12.03.2024-cü il tarixli qərardadına əsasən, məhkəmənin icraatında olan 2(005)-1871/2024 saylı mülki iş üzrə yekun qərar qəbul edilənədək binanın ətrafında söküntü, tikinti və binanı qəzalı vəziyyətə sala biləcək hər hansı bir fəaliyyət göstərilməsi "Gold Məkan" MMC-yə və digər şəxslərə qadağan edilib. Məhkəmə qərarına baxmayaraq, "Gold Məkan" MMC binanı başımıza uçurur. Qeyri-qanuni olaraq, Nərimanov İcra Hakimiyyətinin başçısı bütün bunlara göz yumur. Halbuki, dəfələrlə xahiş etmişik ki, tikinti müvəqqəti olaraq dayandırılsın.

Onu da vurğulayaq ki, bütün bu qanunsuzluqlarla bağlı cənab Prezidentə şikayət olunub. Lakin məmurlar öz işlərini icra etmirlər".

Sözügedən ünvanda, mənzil 28-də yaşayan Abdullayeva İradə Mahmud qızı saytımız vasitəsilə Prezident İlham Əliyevə ünvanladığı məktubunda yazır:

**"Cənab Prezident!**

Yazıb Sizə bildirmək istəyirəm ki, yaşadığım mənzil "Gold Məkan" MMC tərəfindən sökülür. Mənim əşyalarım mənzildə ola-ola söküntü işi gedir. Mənə təzyiq edirlər.

Nazirlər Kabineti Fövqəladə Hallar Nazirliyinə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə göstəriş verib, ancaq işi dayandırmırlar.

Polislər əşyalarımı küçəyə atıb. Evimin bütün əşyaları yağışın altında qalıb.

Nərimanov Rayon Prokrorluğunda belə qanunsuz söküntü apardıqlarına görə, "Gold Məkan" MMC-yə cinayət işi başlanıb. Lakin "Gold Məkan" MMC heç kəsə məhəl qoymur və Azərbaycan Respublikasının qanunlarını pozur.

Onu da diqqətinizə çatdırım ki, dəfələrlə müraciət etməmizə baxmayaraq, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı da tikinti şirkətinin qanunsuz əməllərinə göz yumur".

**Aynurə MUSTAFAYEVA**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq. Redaksiyamıza göndərilən video-görüntünü də oxucularımıza təqdim edirik.**

# ADP Prezidentə müraciət etdi

## Demokratlar ölkə başçısını Dünya Azərbaycanlılarının Həmrəyliyi günündə həbsdə olan jurnalistləri əfv etməyə çağırdı

**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları Qahirədə İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) sammiti zamanı Azərbaycanın bu təşkilata üzv seçilməsi məsələsinə münasibət bildirib. Partiya yetkililəri böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin yekdilliklə üzv seçilməsini təqdir edib və bu faktı ölkəmizin milli və strateji maraqlarına xidmət edəcəyinə əminliyini qeyd edib.**

İdarə Heyəti Türkiyədə baş verən helikopter qəzası nəticəsində həlak olan insanların doğmalarına və bütövlükdə Türkiyə xalqına dərin hüznlə başsağlığı ünvanlayıb və həlak olanlara Allahdan rəhmət diləyib.

İdarə Heyəti Avropa Parlamentinin Azərbaycan hökumətinin vətəndaş cəmiyyətinə, müstəqil mediaya və siyasi müxalifətə qarşı repressiyalarını pisləyən, siyasi məhbusların azad edilməsini tələb edən və yüksək vəzifəli məmurlara qarşı hədəfli sanksiyaların tətbiqinə çağıran qətnaməsinə münasibət bildirib. Partiya yetkililəri son zamanlar Qərb institutları ilə münasibətlərin gərginlik fazasına daxil olmasından dolayı Azərbaycana qarşı insan hüquq və azadlıqlarının pozulmasını özündə ehtiva edən bu cür qətnamələrin davamlı xarakter almasından narahatlığını ifadə edib və bu qərarların qərəzli, ya qərəzsiz olmasından asılı olmayaraq hakimiyyət yetkililərini ölkədə vətəndaş hüquq və azadlıqlarının qorunması, siyasi məhbusların azad edilməsi, media üzərində basqıların aradan qaldırılması istiqamətində addımlar atmağa və bu sahədə üzərinə götürdüyü beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməyə çağırıb.

İdarə Heyəti Bəşər Əsəd dönəmindən sonra Suriyada baş verən hadisələr, ölkənin yenidən şəkillənməsində qardaş Türkiyənin bu ölkənin unitar yapısının, ərazi bütövlüyünün, suverenliyinin qorunması istiqamətində atdığı müsbət addımlar, İran rəsmilərinin yenə də Suriyanın daxili işlərinə müdaxilə xarakterli çağrışlar etməsi ilə bağlı məsələlər ətrafında müzakirə aparıb. Qeyd edilib ki, İranın ali dini rəhbəri Xomeneinin Suriyada formalaşan hökumətə qarşı müqavimət göstərilməsi ilə bağlı çağışı bu ölkənin bu vaxta qədər Suriyada Əsəd rejimini dəstəkləməsinə, özgür Suriyanı öz vassalına çevirməsinə əyani sübutdur və bu cür çağırışlar beynəlxalq hüququn suverenlik prinsipi ilə ziddiyyət təşkil edir. Partiya rəsmiləri qardaş Türkiyənin Suriyanın yenidən qurulması istiqamətinə yönəlik dövlət siyasətinin önəmini qeyd edib və Azərbaycan hakimiyyətini qardaş ölkə ilə eyni xətti izləməyə çağırıb.

İdarə Heyəti Ukrayna-Rusiya müharibəsinə bir daha münasibət bildirib və dünya dövlətlərini bu qanlı müharibənin bitməsi üçün səylərini birləşdirməyə, barışın Ukraynanın birtərəfli qaydada sülhə zorlanması yolu ilə deyil, beynəlxalq hüquq normalarının ərazi bütövlüyü, suverenlik kimi ana prinsiplərinin rəhbər tutulması ilə əldə edilməsinə təsir imkanlarını artırmağa çağırıb.

İdarə Heyəti son vaxtlar ölkədə siyasi motivli həbs dalğasının genişlənməsindən, müxtəlif bəhanələrlə jurnalistlərin, aktiv siyasilərin həbsdə saxlanılmasından dolayı ölkəmizin demokratik ictimayyətin qınağına tuş gəlməsindən, Qərb institutlarının insan hüquqlarının pozulması ilə bağlı qəbul etdiyi qətnamələrlə üz-üzə qalmasından narahat olduğunu bildirib və dövlət başçısı İ.Əliyevi bir daha humanizm prinsiplərini, ölkədə milli birliyi, vətəndaş həmrəyliyini, vətəndaşların dövlətə bağlılıq dəyərlərini nəzərə alaraq qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə əfv fərmanı imzalamağa çağırıb.

**KƏNAN**

# DSX əməkdaşından Elçin Quliyevə müraciət

## O, general-leytenant Araz Məmmədovdan şikayətçidir




**Dövlət Sərhəd Xidmətinin (DSX) rəhbər şəxslərinin qanunsuz əməlləri ilə bağlı "Hürriyyət"in redaksiyasına növbəti şikayət məktubu daxil olub. Naxçıvan Muxtar Respublikası (MR) Culfa rayon sakini olan, müəyyən səbəblərdən ad-soyadını hələ açıqlamağımızı istəməyən sərhədçinin məktubunu olduğu kimi dərc edirik:**

"Mən hərbiçiyəm. Naxçıvan Muxtar Respublikasının Culfa rayonundanam. 2011-ci il tarixdə təyinatla Dövlət Sərhəd Xidmətinin Şəki şəhərində yerləşən N saylı hərbi hissəsinə gəlmişəm. 2023-cü ilin iyun ayınadək burada xidmət etmişəm. Həyat yoldaşım 2017-ci ildən Nazirlər Kabinetinin Hərbi qulluqçuların statusu haqqında (Hərbi qulluqçuların həyat yoldaşlarının işlə təmin olunması) qanununa əsasən, Şəki şəhərində yerləşən Mərkəzi xəstəxanada Tibb bacısı işləyir.

2023-cü ilin iyun ayında Sərhəd Qoşunlarının komandanı general-leytenant Araz Məmmədov xidmət yerimi Zaqatala şəhərində yerləşən Sərhəd Qoşunlarının N sayılı hərbi hissəsinə dəyişdi.

Hazırda həyat yoldaşım işi ilə əlaqədar Şəki şəhərində, mən isə Zaqatala şəhərində işləyirəm.

Həyat yoldaşım dəfələrlə Dövlət Sərhəd Xidmətinin rəhbəri, general-polkovnik Elçin Quliyevə müraciət edib. Yəni 6 dəfə elektron qaydada, 1 dəfə Şəki şəhərində yerləşən "Azərpoçt" vasitəsilə yazılı məktub ünvanlayıb ki, məni və ya həyat yoldaşımı qəbul edin. Buna baxmayaraq, Sərhəd Qoşunlarının komandanı məktublarımızın DSX rəisinə çatmasına maneçilik törədir.

Sərhəd Qoşunlarının komandan qəbulunda olanda da mənə dedi ki, səni mən "ratasiya" etmişəm. Mən də sual verdim ki, "ratasiya" edərkən hərbi qulluqçunun ailə vəziyyəti nəzərə alınmır? Dedim ki, mənim xidmət yerimi dəyişdirdiniz, lap yaxşı, xahiş edirəm, həyat yoldaşımın da mənim xidmət etdiyim ərazi üzrə yerdəyişmə təyinatını təmin edin. General-leytenant Araz Məmmədov mənə şəxsən bildirdi ki, ya həyat yoldaşın işdən çıxarıb yanına apar, ya da tərxis ol.

13 il 6 aydır xidmət edirəm, niyə tərxis olmalıyam?! Sadəcə, mənim sizə müraciətimin səbəbi odur ki, DSX rəisi ya müavinlərinin birini Zaqatala şəhərinə göndərsin, ya da özü şəxsən təşrif buyursun. Axı, nəyə görə hərbi qulluqçunun müraciəti Sərhəd Qoşunlarının komandanı tərəfindən rədd edilir və DSX rəisinə müraciətinin ünvanına çatmasının qarşısı alınır?!"

**Hazırladı: Jalə FAMİLQIZI**

# Özünü axtaran adam

Bir gün Diasfen günün günorta çağı əlində çıraq bazarda qələbəliyin içində gəzirmiş. Onu görənlər soruşublar ki, nə axtarırsan? Deyib, "adam axtarıram".



Sərdar CƏLALOĞLU

*(Əvvəli ötən sayımızda)*

Kitab və kitaba malik olmaq nə deməkdir? Əlbəttə, bunu ən çox kitab yazanlar başa düşə bilər. Rasim Qaraca da kitaba olan sevgisini özünəməxsus şəkildə ifadə edir. Zatən, əgər bir yazıçı başqasının kitabını sevmirsə, öz kitabının da seviləcəyinə umid etməməldir.

Qaraca "hər evdə kitab" olmasını istəyir. Bunun uçun hər adamın kitab oxumaq həvəsi və oxunaı kitabların olması vacibdir. İnsanlar nə qədər kitab oxuması ilə yox, hansı kitabları oxuması ilə öyünə bilər. Bu, mənim yox, Çierinin fikirlərinin bir qədər dəyişdirilmiş formasıdır. Kitab sevgisi insan sevgisinin başqa formasıdır. Kitaba sevgi müəllifə və ya əsərin qəhrəmanına olan sevginin kitabla ifadəsidir. Elə kitab var ki, mən onu azı on dəfə təkrar-təkrar oxumuşam. Çünki həmin kitabın qəhrəmanını özümə çox yaxın dost, hətta bəzən özüm kimi hiss etmişəm.

Böyük adamları tanımaq, sevmək üçün, hec olmasa, səndə də böyüklük olmalıdır. "Zər qədrini zərgər bilər" aforizmini nahaq yerə deməyiblər ki. Qaraca Bəxtiyar Vahabzadəyə vurğunluğundan yazır. Deməli, onda Bəxtiyar müəllimdə olan böyüklükdən nəsə var.

Bəzən böyük adamlar kiçik məişət məsələlərində çox kiçik görünür. Sanki məişət insanları sosial iyerarxiyanın yuxarı pilləsindən götürüb yerə çırpır. Baxırsan ki, nəhəng bir insan məişət məsələlərində çox miskin görünür. Görünür, bu fərq maddiyyatla mənəviyyatin fərqliliyini özündə əks etdirir. Qaraca da dostuna borc verdikdən sonra məişət insanına çevrilir.

Azərbaycanda çox istedadlı gənclər ya zamanın, ya da pis vərdişlərinin qurbanına çevrildi. Bu problem ədəbi yaradıcılıqla məşğul olanların sırasında daha ciddi şəkildə təzahür edir. Ya işkiyə qurşanmaq, ya alver etmək, ya dövrün diqtəsi ilə hərəkət etmək şəxsiyyətləri məhv edir. İnsanlar özlərini nadir halda yuxarıda saxlaya bilir. Məşhurluq sərxoşluğundan çox az adam ayıla bilir. Məşhurluq da dayça kimidir. Rəhmətlik Afiyyədin Cəlilov demişkən, "minmək asandır, üstündə oturmaq çətin".

Haşiyə çıxaraq bildirim ki, Elçin Səlcuqla mən də dostluq emişəm, məndən yüz dəfələrlə müsahibə alıb. Hətta onun toyunda iştirak etmək üçün məxsusi olaraq Bakıdan Şərura getmişəm. Onu sevdiyimdəndir ki, hər dəfə danlamışam: "Özünün qədrini bil, özün özünə düşmən olma". Çox təəssüflər ki, Səlcuq bəzi məhv olmuş istedadlar kimi, həyatdan çox tez getdi. Çox istedlı, çalışqan, bacarıqlı, mübariz biri idi. Amma özü özü ilə mübarizə apara bilmədi və özünə məğlub oldu. Qaracanın Səlcuqla bağlı yazdıqlarını bölüşürəm və bir daha ona Allahdan rəhmət diləyirəm. Heyf!

Adam kiçiləndə rahat olur. Böyüklük narahatlıqdan başqa bir şey deyil. Ona "Axşam çolməyimdə bozbaşım bişsin, bəsdir" deyən insanlar yalançı xoşbəxtliklərindən həzz almaqda yarışırlar. Şəxsiyyətlə fərdin fərqi şəhərlə kəndin fərqi qədərdir. Buna görə, harada doğulmasından asılı olmayaraq, böyumək istəyənlərin hamısı şəhərlərə axışır. Hətta Lenin deyirdi, Feterbax ona görə materializmdən idealizmə yuvarlandı ki, o, şəhərdən kəndə köçdü. Kənd həyatının idealizmə istiqamətləndirməsi kənd həyatının təbiətə daha yaxın olmasıdır. Kənddə böyük şəxsiyyət olmaq mümkün olmasa da, saf insan olmaq mümkündür.

İnqilablar, üsyanlar, xaos ilk növbədə ziyalıları vurur. Rus inqilabı rus ziyalılarının Rusiyadan Avropaya nəhəng axınına səbəb oldu. İnsanlar yalnız qandan qaçmırdı, həm də məsuliyyətdən qaçırdı. Buna görə, rusların mühacir ədəbiyyatı iki Nobelçi rus yazıçını - Bunin və Soljenetsini yetişdirə bildi. Amma rus inqilabı bu səviyyədə kimsəni ortaya qoya bilmədi. Toplar danışanda sairlər susar. 20 yanvar hadisələri də Azərbaycan ədəbiyyatında qısa da olsa bir durgunluq dövrü yaşatdı. Qaraca bu dövr yaşantılarını da xatırlamaqdan vaz keçmir.

* * *

Hər kəs öz yerində olanda faydali olur.Bir yaradici adamin biznes aləminə keçməsi ya onu yarıtmaz kadra cevirir ya da yaradıcı insan kimi öldürür, yerində alverçi birini doğurur. Qaracanın Rusiya məcaraları da bir ədəbiyyat adamının biznes aləmindəki məcaralarından danışır. Qaraca işindən imtina edib "öz işini" seçir. Onun işi Azərbaycan ədəbiyyatı üçün işləməkdir, biyara işləməli olsa belə. Zatən Qaracanın mənəvi keyfiyyətləri ona biznesmen olmağa imkan verməzdi.

Azərbaycan da insanları xoşbəxt edən ən mühüm məsələ evi olmasıdır. Çox qəribədir. Təbiətdə yuvası olmayan heyvan təəccüb doğurduğu halda, bizim cəmiyyətdə evi olmaq təəccüb doğurur. Buna görə insanların evə sahib olmaları onların həyatlarının sonuncu zəfəri kimi qəbul edilir. Xüsusən yaradıcı insanlar üçün ev problemi Nobel mukafatı almaqdan daha çətindir. Dünyada kimsənin ev alması təəccüb doğurmadığı halda Azərbaycanda evə sahib olmaq başqalarında təəccüb həsəd, hətta paxıllıq belə yaradır. Bu da başqa bir problemdir. Ev kiçik vətəndir. Ona görə evi olmayan cox asanlıqla mühacir həyatını seçirlər. Qaracanın ev almaq məcarası sovet və postsovet yaradıcı insanların əksəriyyəti üçün xarakterikdir. Vahid kimi nəhəng bir şair ev almaq üçün qəzəllə hökumətə müraciət edibsə, gör ondan daha asağı ranqda olan yaradıcı adamlar nə gündə yaşayıblar. Evə sahib olmaq arzusu nə qədər böyukdürsə, insan bir o qədər kiçik evə sahib olmadan xoşbəxt olur. Qaracanın kiçik evi də onun ucun böyük bir səadət olacaqdı, amma zəlzələ olmasaydı.

Əslində Qaracanın mənəvi aləmindəki zəlzələ onun dünya malına münasibəti dəyişdirir, sadəcə Bakıda baş verən zəlzələ daxili zəlzələni fikrə çevirir. Hər şey fanidir.Əbədi olan əsərdir.

Azərbaycan da keçid dövrü-sovetizmdən milli dövlətçiliklə başa çatsa da, təəssüf ki, hələ də ayrı-ayrı fərdlər keçid dövrün yaşamaqdadır. Çar yıxılanda "bəlkə də qaytardılar" deyənlər kimi sovetin dağılmasından sonra da "bəlkə də qayıtdılar" deyənlər var. Bizdə adamlar niyə yeni quruluşa cəhd etmədi? Çünki köhnə quruluşun xofu onları gələcəyə ümidinin üstündən xətt çəkmişdi. 37-ci illəri görənlər sonralar evlərində belə pıçıltı ilə danışırdılar və hətta bəzən evlərində belə casus olacağından qorxub susmağa üstünlük vermişdilər. Susan insanın ağıllı ya dəli olmasını necə bilmək olar?




Qaracanın Türkiyə məcaraları da Rusiya məcaraları kimi bitir. Cunki Qaraca vətəninə o qədər bağlıdır ki, başqa yerə bağlana bilmir, hətta o qardas Türkiyə olsa belə. Gəzməyə qürbət ellər, ölməyə vətən yaxşı? Görünür vətəndə ölmək daha asandı. Qaraca Turkiyə də çətinliklə yaşamaqdansa Azərbaycanda asanlıqla "ölmək" üçün qayıtmağa qərar verir.

İnsanları yalnız dost tanışı aldatmır, həm də ad çıxarmış tarixi səxsiyyətlər aldadır. Dunyada elə ideyalar var ki, onlara səthi yanaşanda parlaq, dərindən yanaşanda qaranlıq kimi görünür. Kommunizm ideyası da belə ideyalardır. Qaracanın dostu da Marksla Leninə ona görə aşiq olur ki, onları dərindən anlaya bilmir. Qaraca da elə həmin apologiyanın-(səmimi yanilmaq ) əsirinə çevrilir və iki ilə marksizm leninizmi yeni dövrdə yenidən mənimsəməyə cəhd edir. Baxmayaraq ki, bu ideya məğlub olub və ikinci dəfə həyata gəlməsi nonsensdir, hələ də insanlar həmin ideyanı diriltməyə cəhd edir. Deməк ki, Şeyx Nəsrullahlar bütün dovrlərdə var və öz kefli İsgəndərlərini gözləməkdədirlər. Mən də Lenin və kommunist ədəbiyyatını çox oxumuşam, məqsədim onları daha yaxşı tənqid etmək olub.

Yaradılışla yaradıcılıq zahirən oxsardır. Yaradıcılıq ilahi yaradılışın ən aşağı dərəcədə təzahürüdür. Fərq birinin yoxdan, digərinin vardan yaradılması, birində həyat verməyin mümkünlüyü, digərində mümkünsüzlüyüdür. Mən yaradıcı insanı Tanrıya yox, daha çox valideynə bənzədirəm. Valideynlər irsən öz formalarını övladlarına verir, amma onlara canı Tanrı verir. Qaracanın Allahı rəssam kimi dərk etməsi də bir məcaz kimi qəbul ediləndir. Zatən Allah Qurani-Kərimdə hər bir peyğəmbərinə bir yaradıcılıq sifəti verdiyini, Özünün "İlahi boyaqçılığının" hamının boyaqçılığından üstün olduğunu bəyan edir. Kimisinə həkimlik, kimisinə sənətkarlıq, kimisinə dülgərlik. Yaradıcı adam özünü tanrı kimi tanımadıqca, yaradılışı yaradıcılığa oxşada bilər. Zatən oxşarlıq formaca eynilik, mahiyyətcə fərqlilik deməkdir.

Uçuruma atılmaq uçmaq kimidir: Qaracaya görə, uçurma atılmaqda bir uçmaqlıq var. Amma uçmaqlıq yuxarıya qalxmaq, uçuruma düşmək aşağı enmək olduğundan uçuruma düşənə uçan kimi baxmaq olmaz. Həyatda bəzi insanlar bu cür yanılır. Yəni uçuruma düşür, bunu uçmaq kimi anlayır. Hər şeyi nəticə müəyyən edir. Əgər yuxarı qalxmayıbsınızsa, demək siz uça bilməmisiniz. Əgər uça bilmirsinizsə, demək sizin qismətinizə düşmək düşür. Yaradıcı adamlar buna görə istedadlarının faciəsini yasayırlar.

Qaraca "özü-özünə tüpürmüş insanı həyatda ən təmiz insan" hesab edir. Bir insanın tüpürcəyi yalnız başqaları üçün iyrənclikdir. Özü üçünsə əksinə. Bu insani eqo ilə bağlıdır. Nə ki bizə məxsusdur, bizim üçün yaxşıdır. Yadıma bu yaxınlarda Elza Seyidcahanın tüpürcəklə bağlı şeri düşdü. Qaracanın şairlərin həyatı ilə bağlı yazdığı çox kiçik hadisələr ayrıca bir romanın mövzusu ola bilərdi. Hər sənət adamının özünə xas sərguzəştləri var. Həkimlər müəllimlər kimi sərguzəşt yasiya bilmədiyi kimi hec kəs də yazicilar kimi sərgüzəşt yasaya bilmir, çunki belə sərgüzəştlər yalnız yaradıcı mühütdə baş verə bilər.

Ədəbiyyatın ya ədəbiyyatçının bədbəxtliyi.?! Ədəbiyyat nə xoşbəxt, nə bədbəxt ola bilər. Amma yaradıcı adam ya xoşbəxt ya bədbəxt olur. Bu onun ədəbiyyatdan necə istifadə etməsi ilə bağlıdır. Qələm iki ağızlı qılınc kimidir, o basqasını kəsər, ehtiyatsızlıq edəndə adamın özünü də kəsir. Siz qələmi qılınc kimi də, qalxan kimi də istifadə edə bilərsiniz. Ədəbiyyatda bədbəxt ya xoşbəxt olmaq yaradıcının ədəbiyyatdan gözləntiləri ilə bağlıdır. Halbuki, hər bir insan yalnız özündən gözləməlidir hər şeyi.

Azad yazar, haqq aşiqi, tanış olmayanlar, ideal insan, əsl ziyalı! Qaraca bunların hər birinə öz kitabında yer ayırıb. Lap əvvəlcədən özünü tanımağı insanın həyatının başlıca vəzifəsi olduğunu demişdim. Bütün bu sifətlər özünü tanımağın ayrı-ayrı təzahürləridir.

Azadlıq- ən böyük insani dəyərdir. Azadlıq olmadan istedad üzə çıxmaz, ona görə insan hüquq və azadlıqları deklarasiyasında insana bir halda üsyan hüququ tanınır, o da onun istedad və qabiliyyətlərin üzə çıxmasında azadlıq olmayanda.

Haqq axtarışı insanı heyvandan fərləndirən əsas əlamətlərdən biridir. Haqq birdir, təzahürü çoxdur, ona görə insanın özünü tanımasi dünyanı və Allahı tanımasına vəsilə olur.

İdeal insan o insandır ki, o bədənsizdir, yəni xalis ruhi varlıqdır. Çox az insan ideal olur. Ziyalı nurlu deməkdir. Nur həqiqətin yayılma formasıdır.

Həqiqi ziyalı özündə olan nuru yaymağı bacaran insandır.

Bəs tanımadığımız adam kimdir? Özünü tanımayan insanı kimsə tanıya bilməz. Belə insanın konkret məqsədi, məqsədyonlü fəaliyyəti və seçim qabiliyyəti olmur. Dalğaların üzərindəki boş bir qutu kimi külək onu hansı tərəfə aparırsa, o tərəfə üzür. Belənsini tanımaq mümkün deyil, çünki o heç vaxt özü ola bilmir.

Qaracanı ona görə tanıyırıq ki, o bizdən qabaq özünü tapıb və özünü tanıyır. Azərbaycan yeni nəsil ədəbiyyatçılar ailəsinin bir üzvüdür.

Nəhayət siyasət və ədəbiyyat. Mahatma Qandi deyirdi ki, siz cəmiyyətdə olan hər şeyi siyasiləşdirməyin, onsuz da siyasi olmayan hər şeyin siyasi nəticələri var. Ədəbiyyat da baxmayaraq ki, bilavasitə siyasətlə məşğul olmur, amma siyasət ədəbiyyatla məşğul olanlarla məşğul olur. Kİmsə Qızıl Arslan kimi şairin ayağına gedir, kimsə də şairi ayağına gətirdir. Kimsə şairi mükafatlar içində boğur, kimsə zindanlarda çürüdür. Kimsə ədəbiyyatçının dilini kəsir, kimsə ədəbiyyata dil verir. Siyasət cəmiyyəti təşkil etmək, nizamlamaq və nəzarət funksiyalarının vəhdətindən başqa bir şey deyil. Ədəbiyyat siyasətdən fərqli olaraq fərdi mənəvi cəhətdən təşkil edir, onların mənəviyyatını tənzimləyir-nizamlayır, qaydalar qoyur, sonra da onların doğru yolda olub-olmamasına nəzarət edir. Deməк ki, siyasət xaricdən, ədəbiyyat daxildən insanla məşğul olur.

Bu yazımla Qaracanın alatoran düşüncələrinə az da olsa aydınlıq gətirməyə cəhd etdim, buna nə qədər nail olmağıma yalnız oxucu qiymət verə bilər. Oxuculara da Qaracanın "Zülmətdə alatoran"adli avtobioqrafik romanini oxumağı tövsiyə edirəm. Ən azı özünüzü tapmasanız da, Qaraca adında istedadlı bir yazıçını tapa biləcəksiniz.

# Qəribə əhvalat

## Ümidin ölüm xəbəri, ədalətin qeybə çəkilməsi...

**Günlərin bir günü xəbər verildi ki, ümid qəflətən ölüb...yəni başını və canını götürüb haqq dünyasına üz tutub...**

Xəbər ildırım sürətiylə yayıldı və ölkəni bir-birinə vurdu: inanan kim, inanmayan kim... Ağlayan kim, gülən kim, sevinib-şadlanan, qəm-qüssəyə batan kim...

Əlqərəz, ayağı yer tutan məmləkət əhli birbaşa baş şəhərin baş meydanına axışdı...

Hamıdan qabaq özünü yetirənlər vicdan, daha sonra, ümidin qan qohumları - arzu, istək və inam oldu. Az keçmiş, ümidin uzaq qohumları və yaxın tanışları - sevgi, mərhəmət, niyyət, səmimiyyət və ləyaqət də gəlib çıxdılar.

...Baş şəhərin boş meydanı göz önündəcə insan axınıyla dolub-daşdı...

Meydanda kimlər yox idi! Cəsarətlilər, mübarizlər, mərdlər, müxaliflər, anti-müxaliflər, alın təri və əllərinin qabarıyla halal yaşayanlar, yaxşılıq və xeyirxahlığı özünə Alın Yazısı sayanlar, canım sizə desin, günün günorta çağı əlində çıraq, adam axtaranlar, bir qarın çörək üçün əlləşib-vuruşanlar, kasıblar, çarəsizlər, məzlumlar...

Amma bütün bunlara rəğmən, meydana gələnlərin arasında əks qütbün nümayəndələri də az deyildi. Aralarında oğrusu, cibgiri, pulgiri, halalı harama qurban verəni, düzü əyriylə kəsəni, yaltağı, yalağı, pişiklənəni, quyruq bulayanı, alçağı, hətta anasının əmcəyini kəsəni də, camaatın başında turp əkəni də, namərdi, riyakarı, yalançısı, dəyyusu, oğraşı, içvərəni və sairə və ilaxırları da var idi.



Bir sözlə, cəmiyyətin bütün spektri burada cəm olmuşdu.

Meydan dəniz kimi qabarıb-dalğalanır, uğuldayırdı...

Kimsə irəli çıxıb nəsə deməli, nəsə aydınlatmalıydı...

Nəhayət, haradansa "A"vari qatlama bir nərdivan gətirib, meydanın ortasında açdılar. Nərdivanın baş pilləsini vicdan, aşağı ayaqlarını isə ümidin yaxın qohum-əqrabası tutdu...

Bəili, vicdan nərdivanın ən yuxarı pilləsinə qalxıb əllərini qaldırdı. Meydanı nənni tək ağuşunda yelləyən uğultu "xırp" kəsildi.

Vicdan boğazını arıtlayıb xırıltılı bir səslə dilləndi:

- Həzarat! Deyirlər bu gün biz ümidi...əzizimiz ümidi itirdik...

Vicdan sözünün ardını gətirə bilmədi, qəhər boğdu. Bir neçə dəfə udqunub köks ötürsə də, danışmağa taqəti olmadı, susdu...

Kimsə yanındakına:

- Vicdan susanda!..- dedi.

Yanındakı:

- Hə, yaman olur, səhv düşəndə yerimiz...- deyə cavab verdi.

Meydanın başqa səmtində, başqa birisi, mücərrəd və konkret mənə kəsb etməyən səsli bir söz, ya sözlü bir səs çıxartdı:



**Eldəniz QULİYEV**

- Bahoo-vehyy!

Burada mütləq haşiyəfason bir şeyə çıxıb, bir zad deməliyəm: Şəxsən mən, beləl追ini, yəni millətin ağrı-acısına laqeydlik göstərənləri vicdanını, vicdanıyla birgə ləyaqətini də küt baltayla qaşıyıb təraş eləyənlər fəsiləsinə aid edirəm.

"Bahoo-vehyy"dən ruhlanan, boydan, eləcə də şərəfdən ömürlük liliput qalan donbagöz bir "adam", hülqumunu qabağa verib ciyildədi:

- Vicdan əmi, bu necə olan şeydi...hi-hi... Bə deyirdilər, ümid ən sonda ölür... hö-höö... Bə nətəər oldu ki, ümid öldü, amma bizlər sağ qalmışıq?..Buna cavab verə bilərsənmi?..Ha-ha...

Yüzlərlə, bəlkə də minlərlə adam bu yersiz sualı sürəkli alqışlarla qarşıladı. (???) Eyni zamanda, onlarla, bəlkə də yüzlərlə "adam" şit-şit hırıldayıb donbagözlə həmrəy olduqlarını bildirdilər.

Nərdivanın aşağı pillələrində qərar tutmuş arzu, istək və niyyət, özlərindən asılı olmadan, yanıqlı hönkürtü çəkdilər...

Meydana qəribə pərtlik çökdü...

Kütlənin arasından kimsə kimlərdənsə soruşdu:

-Bilmirsiz, ədalət hardadı, gözə dəymir axı?..

Ətrafdakılar çiynlərini çəkdilər:

-Yoxdu, görməmişik.

-Harda olsa, gəlib çıxar...

...Vicdanın əng əzələləri oynayırdı.

O, donbagözün kinayəli atmacasına alqış və hırıltıyla dəstək verənlər tərəfə baxdı və bu dəfə zəhmli səslə:

- Nadanlar! Əbləhlər! - dedi.- Ümidin haqq dünyasına qovuşması hələ o demək deyil ki, sizlər və sizinkimilər sağdır!.. Əslində, rəhmətlik ümid sizin kimi vicdansızların badına getdi... Gördü ki, camaatın başına açılan oyunlar heç vecinizə də deyil, çox vədə bu oyunları qurub-qoşanlar da elə sizlərsiz. Mərhum neynəməliydi?! Nə qədər özünü oda-közə vurmaq olar axı?! Daha nə qədər sizə kömək eləmək, nə qədər rüşvətə, günaha batmış o murdar əlinizdən tutub sizi dürüstlüyə, saflığa, paklığa sarı dartmaq olar?! Axırda gördü ki, nə illah eləyir, nə qədər əlləşib-vuruşursa, xeyri yoxdu - qıdığınız gəlmir ki, gəlmir!.. Gördü ki, siz diriykən ölüsünüz... Binəva axırda yoruldu, bezdi, təngə gəldi... Yeganə yolu Haqq dünyasına üz tutmaqda gördü, - başqa nə çarəsi vardı ki?!..

Bayaq ədaləti soruşan narahat adam ətrafa boylanıb dodaqaltı gileyləndi:

- Bu ədalət harda qaldı, ee?.. Zalım balası, elə bil bu boyda həngamədən xəbəri yoxdu...

...Bu vaxt meydanın yaxınlığında hayı gedib, vayı qalmış, "quluşiteli" xarab, üstəlik, yanyörəsi abstrakt rəsm qalereyasını xatırladan rəngbərəng "şpaklyovkalı" köhnə bir 011 "Jiquli" maşını dayandı. Dayandı və "quluşitelindən" çıxan atəş səsləriylə dissonans yaradan bippiltili uzun bir siqnal verdi. Sürücü kütlənin diqqətini özünə cəlb elədiyinə əmin olandan sonra, şəstlə maşından düşdü. Üzünü hamıya və heç kimə tutaraq qışqırdı:

- Ehheyy, ay camaat! Ümid ölməyib! Xəbər yalandı, feykdi! Ümid sağ-salamatdı! Onu, sadəcə, tutublar, həbs eləyiblər, türməyə salıblar!..

- Harda?

- Niyə?

- Kim tutub?

- Nə vaxt?

- Nəyə görə?

- Neynəyib ki?

- Günahı nədir?

- Aaa... başımıza xeyir, bu da təzə çıxdı?..

- Boyy?..

- Ta tutmağ özgə bir zad tapmadılar?..

Təəssüf və heyrət dolu suallar tennis topu kimi meydanın hər tərəfində atılıb-düşdü...

Sürücü qoltuq cibindən əzik bir kağız parçası çıxarıb oxudu:

"Salam! Məndən nigaran qalmayın. Güman ki, anlaşılmazlıq olub... Qismət olsa, Yeni ildə görüşərik, İnşAllah! Ümid."

Vicdan və ümidin qan qohumları camaatı yara-yara 011-ə tərəf tələsdilər...

Meydan yavaş-yavaş seyrəlməyə başladı... Camaat, əli ətəyindən uzun, deyinə-deyinə, mızıldana-mızıldana, donquldana-donquldana, başlarını qaşıya-qaşıya, habelə, sevinə-sevinə, gülə-gülə, kövrələ-kövrələ və s. meydanı tərk elədi...

Nəhayət meydanın tən ortasında bircə nəfər qaldı - ədaləti axtaran narahat adam...

O da elə hey ətrafa boylanır, öz-özünə pıçıldayırdı:

- Zalım balası bu ədalət gəlib çıxmadı da... Bir tikə əppək olub qeybə çəkilib, elə bil!... Belə də ədalət olar?..

Və o, qəfildən sancılanmış adam kimi, yerindəcə donub qalır; elə bil, birdən-birə ürəyinə daman "nədənsə" xoflanır...

- Eeyy... Dadi-bidad, olmaya... deyirəm, birdən... onu da tutarlar, ya Allah eləməmiş, ölüb eləyər, xəbər tutmarıq, - biabır olarıq... Kiş-kişlər olsun!

"HƏMAS"-ın 7 oktyabr hücumu və "Hizbullah"-ın aktivləşməsi fonunda qısa müddət "parlayan" İrandakı hakim rejim İsrailə qarşı heç bir ciddi effekt verməyən bir-iki raket hücumundan, "HƏMAS" və "Hizbullah" liderlərinin öldürülməsindən sonra sürətlə "sönməyə" başladı. İran rejiminin "hərbi-siyasi alovunu söndürən" son "külək" Suriyada Bəşər Əsəd rejimin bir neçə gündə süquta uğraması, çökməsi oldu...





# İran niyə "sönüb"?

## Neft-qaz ölkəsi kəskin enerji qıtlığı yaşayır, hakim rejim isə...

Son günlərdə isə İran sözün hərfi mənasında sönüb. Özündən başqa onlarla ölkəni təmnin edəcək nefti, təbii qazı, digər təbii sərvətləri olan olan böyük ölkə əsl enerji böhranı, hətta bəzi ekspertlərin dediyi kimi, enerji fəlakəti ilə qarşılaşıb.

Elektrik enerjisi qıtlığına görə ölkə daxilində dövlət qurumları bağlıdır və ya qısaldılmış iş rejimində işləyir, məktəblər və kolleclər onlayn təhsilə keçib. Ticarət mərkəzləri, mağazalar, yollar qaranlığa qərq olub, sənaye müəssisələri isə işıqsız qalıb, bu da istehsalı demək olar ki, tamamilə dayandırıb. İş o yerə çatıb ki, ölkə Prezidenti Məsud Pezeşkian yaranmış vəziyyətə görə ölkə əhalisindən üzr istəyib. Hansı ki, vəzifəsinə təzə qədəm qoyan və islahatçı sayılan prezidentdən öncə ölkəni bu duruma gətirən Ali dini lider Əli Xamenei, onun başçılıq etdiyi molla rejimi və ölkəyə faktiki nəzarəti həyata keçirən İslam İnqilabı Keşikçiləri Korpusu üzr istəməli və məsuliyyət daşımalıdır...

İndi İranda evlərin demək olar ki, 90 faizi qazdan istifadə edir. Bu, nə vaxtsa böyük nailiyyət hesab edilirdi. Lakin indi əksinədir. İran nə qədər əcaib görünsə də, faktiki təbii qaz qıtlığı yaşayır. İranda əhalinin məişət ehtiyacları və sənaye üçün qaz çatışmazlığı hazırda sutkada 350 milyon kubmetr qiymətləndirilir. Bu vəziyyətdə səlahiyyətli qurumlar kimin təchizatını kəsməli olduğuna qərar verməli idilər - elektrik stansiyaları, yoxsa istilik və yemək bişirmək üçün qazdan istifadə edən fərdi istehlakçılar? Hakimiyyət əhali arasında daha böyük narazılığa yol verməmək üçün sənayeni deyil, əhalini seçdi, ona görə də 17 elektrik stansiyasının qazını kəsdi. Lakin bu da əhalinin elektrik enerjisi və qazla təminatını tam həyata keçirməyə imkan vermir. Əhaliyə işıq böyük fasilələrlə, gündə bir neçə saat verilir. Vəziyyət isə getdikcə daha da pisləşir.

Dövlət elektrik şirkəti sənaye şirkətlərinə elektrik enerjisinin kəsilməsinin uzun müddət, hətta bir neçə həftəyə qədər davam edə biləcəyi barədə xəbərdarlıq edib. Bu da İranda istehsalı 30-50 faiz azalda, böyük itkilərə səbəb ola bilər.

Və bütün bunlar hazırda ərazisində faktiki böyük müharibə gedən, az qala hər gün Rusiyanın vəhşi hücumlarına, enerji infrastrukturu kütləvi raket, PUA zərbələrinə məruz qalan Ukrayna yox, ərazisində hər hansı hərbi münaqişə olmayan



və qaz, neft ehtiyatları ilə zəngin İranda baş verir. Hətta Ukraynada da bu gün elektrik enerjisi İrandakı qədər fasilələrlə verilmir, bir çox hallarda ümumiyyətlə, fasilələr yoxdur...

Əslində, bu gün İranda yaşananlar bir daha öz hakimiyyət maraqları naminə sivil dünyaya, normal dünyəvi münasibətlər sisteminə qarşı çıxmağın, qonşulara qarşı düşmənçilik siyasəti yürütməyin, öz ölkəsində normal siyasi, iqtisadi, sosial və s. sistemin qurulmasının qarşısını almaq üçün əlindən gələn hər şeyi etməyin nə ilə nətəcələnə biləcəyinin bariz nümunəsidir. Avtoritar rejimlər üçün bu cür vəziyyətin yaranması xarakterikdir.

Birincisi, məlum səbəblərdən İrana qarşı yürüdülən sanksiyalar bunu labüd edirdi. İran hər nə qədər özünü sanksiyalara davamlı ölkə kimi göstərməyə çalışsa da, bu vəziyyət çox davam edə bilməzdi. İndi İran rəhbərliyinin özü də bunu etiraf etmək məcburiyyətindədir.

İkincisi, ölkə iqtisadiyyatı hökumətin iqtisadi bloku, mütəxəssislər tərəfindən və ümumilikdə iqtisadi qanunlar, azadlıqlarla deyil, İran rejiminin vuran əli olan İran İslam İnqilabı Keşikçiləri Korpusunun "kefinə" və maraqlarına uyğun şəkildə idarə olunur. Nəticədə İran rejimi son illər öz iqtisadiyyatını, enerji sektorunu, infrastrukturunu modernləşdirmək əvəzinə, əlinə düşən olan-qalan vəsaitləri də silaha, hərbi sənayeyə, regionda proksi hərbi qruplaşmalar saxlamağa, Bəşər Əsəd rejimi kimi hakimiyyətləri və siyasi qüvvələri dəstəkləməyə yönəldib. Bu cür xarici siyasətin ən böyük "uğurlu nəticəsi" də darmadağın olan "Hizbullah", çökən Əsəd rejimi, hazırda Ukrayna səmalarında vurulan "Şahed" PUA-ları və İranın təcrid edilməsi prosesinin daha da güclənməsidir.

Üçüncüsü, İsraillə uzunmüddətli münaqişəyə girən İran hakimiyyəti bunun ağır fəsadlarından qaça bilmir. Təkcə onu qeyd etmək kifayətdir ki, İsrail son qarşılıqlı raket hücumları zamanı İranın iki əsas qaz kəmərini vuraraq sıradan çıxarıb. Bu zərbələrə çoxları diqqət yetirməsə də, hazırda yaranan vəziyyətdə bunun kifayət qədər ciddi rolunun olduğu qeyd edilir.

Nəhayət, İranın idarəçiliyindəki qeyri-peşəkarlıq və korrupsiya da öz sözünü deyir. Bu cür rejimlərdə hakimiyyət müvafiq vəzifələrə seçim edərkən məmurları peşəkar qabiliyyətlərinə görə deyil, rejimə sədaqəti, ideoloji bağlılığı və hakim klanla bu və ya digər şəxsi əlaqələri, o cümlədən korrupsiya sxemlərindəki iştirakı əsasında təyin edir. Belə bir vəziyyətdə ölkənin peşəkar və vicdanlı məmurlar tərəfindən effektiv idarə olunması şansı 0-a yaxınlaşır, necə ki, İranda bunu görürük. Əslində, bu vəziyyət Rusiyanın özü üçün də dərs olmalıdır...

Nəticə budur ki, İran hazırda qaranlığa qərq olub. Həm hakimiyyəti qorumaq, həm də vəziyyətdən sürətli və effektli çıxış yolu axtarmaq isə qaranlıq otaqda qara pişik axtarmaq qədər çətindir...

**Cəlal MƏMMƏDOV**



II YAZI

# İlham Rəhimovun "toxumları" necə ələ keçirilib?

**Birinci yazımda da qeyd etdiyim kimi, 2012-ci ildə sabiq deputat, Milli Məclisin İnsan Hüquqları Komitəsinin keçmiş sədri Rəbiyyət Aslanova ilə cəmiyyətdə daha çox Putinin dostu kimi tanınan iş adamı İlham Rəhimovun nikaha daxil olması çoxları üçün gözlənilməz idi. Əlbəttə, ölkədə kifayət qədər tanınan, ciddi vəzifə və nüfuz sahibi olan insanların təxminən 60 yaşında evlilik qərarı alması başqa cür də qarşılana bilməzdi. Görünür, o səbəbdən də onların ailə qurması "siyasi evlilik" kimi təqdim olunmağa başladı.**

Lakin bəzi media resursları da var idi ki, öz təxəyyüllərini "həqiqət" kimi təqdim etməyə çalışır, guya, bu insanların iradələrinə zidd olaraq nigah masasına oturmağa məcbur edildiyini yazırdılar. Əvvəlki yazımda bu haqda geniş məlumat verdiyimdən, həmin mövzuya qayıtmağa ehtiyac görmürəm. Sadəcə, onu deyə bilərəm ki, Rəbiyyət Aslanova ilə İlham Rəhimovun nikahının "siyasi evlilik" kimi təqdim olunması həmin vaxt bəzi sıradan insanların marağına xidmət edirdi. Xüsusilə o şəxslərin ki, onlar bu nikaha qarşı idilər və yeni cütlükləri ayırmaq üçün mümkün olan hər yola əl atırdılar...

Önçəki yazımda da oxucuların diqqətinə ərz etmişdim ki, R.Aslanova ilə İ.Rəhimovun evliliyinin cəmi 6 ay çəkməsi bir xəbərlə altüst oldu. Əslində, bu xəbərin nə olduğu artıq kimsəyə sirr deyil. Bəs, biz nə üçün o informasiyanın İ.Rəhimovun "keçmiş səhvlərindən" qaynaqlandığı düşüncəsindəyik? İlk əvvəl bu suala cavab axtarmağa çalışaq.

Kimsəyə sirr deyil ki, İlham Əliyevin bu evliliyə qədər həmyerlisi olan müğənni Ruhiyyə Əliyeva (Ruhi) ilə yaxın münasibəti olub. Çünki onların yaxınlığı zaman-zaman mediada gündəmə çevrilib. Hətta bəziləri bu ikilini "evləndirib", başqaları onların vətəndaş nikahında "ər-arvad kimi" yaşadıqlarını iddia edib və s. Lakin bu yazımda son dərəcədə dəqiq qaynaqlara istinadən deyə bilərəm ki, R.Əliyevanın İ.Rəhimovdan olan əkizləri 6 yaşına çatanadək onların arasında heç bir rəsmi bağ olmayıb. Əslində, bu haqda illər öncədən mediada da kifayət qədər məlumat verilib. O da iddia olunub ki, İlham Rəhimov yalnız Bakıya gəldiyi zamanlar ara-sıra onunla görüşüb. Üstəlik, çoxlarının iddia etdiyindən fərqli olaraq, bu yaxınlığın qarşılığında müğənniyə nə bahalı maşın, nə villa, nə də mağaza və s. hədiyyə olunmayıb. Çünki İ.Rəhimov nə qədər zəngin bir insan olsa da, onu kimsə səxavətli biri kimi tanımır. İkincisi, o, bu münsibətləri heç vaxt ciddiyə almayıb və müğənni ilə yaxınlığına ötəri yanaşıb. Artıq sizlərə məlumat verdiyim kim, iş adamı Rəbiyyət Aslanova ilə evliliyi öncəsi də bunu etiraf edib, yəni Ruhiyyə Əliyeva ilə ciddi əlaqəsinin olmadığını bildirib.

Bəs, necə oldu ki, o, "təcrübəsizlik" göstərərək, qeyri-ciddi münasibətdə olduğu müğənnini hamilə buraxıb? Zənnimcə, İlham Rəhimovun Rəbiyyət Aslanova ilə evliliyinin cəmi 6 ay sonra dağılmasının səbəbi də bu sualda gizlənir. Söhbət ondan gedir ki, R.Əliyeva İ.Rəhimovun onunla ötəri




## Müğənni Ruhiyyə Əliyevanın əkizlərinin atası olan iş adamına qurduğu tələnin tükürpədici detalları

münasibətdə olduğunu bildiyi halda, özü üçün böyük planlar qurub. Çünki məqsəd iş adamını ələ keçirmək, ondan övlad dünyaya gətirmək olub. Əlbəttə, o, İlham Rəhimovun onunla dərinə gedən bağ qurmayacağını, adi vəziyyətdə heç vaxt ona öz qadını kimi yanaşmayacağını çox gözəl bilirdi. Əslində, iş adamının ona qarşı münasibəti də hər şeyi ortaya qoyub. Amma Ruhi Əliyeva səbrlə gözləyib, öz hədəfinə çatmaq üçün mümkün olan hər varianta əl atıb. Müğənni vaxtilə özünə yaxın bildiyi adamlara etiraf etmişdi ki, İlham Rəhimovdan hamilə qalmaq istəyir, amma qarşı tərəf heç bir halda ona şans tanımır.

Təbii ki, İ.Rəhimovun bu məsələdə ehtiyatlı davranması anlaşılandır. Amma, necə deyərlər, "İlham Rəhimov saydığını saysın, görün Ruhi Əliyeva nə sayıb"...

Oxuculardan üzr istəyərək bir məsələni diqqətə çatdırmaq istəyirəm. Müğənni R.Əliyeva yaxın rəfiqəsinə deyib ki, iş adamı cinsi təmas zamanı həmişə qoruyucu vasitələrdən istifadə edir, bu səbəbdən də ondan hamilə qalması mümkün deyil.

Bununla belə, o, ümidini üzmür. Beləcə, onların münasibəti aylarla davam edir. Bir daha oxucuların əfvinə sığınaraq bildirim ki, nə qədər olmasa da "KQB məktəbi keçən", uzun illərdir bu təşkilatın "xaç atası" Putinlə oturub-duran İlham Rəhimov onunla yataq münasibətindən sonra hər dəfə öz toxumlarını istifadə etdiyi rezinlə birlikdə ləğv edib. Bu səbəbdən bədbinliyə qapılan R.Əliyeva bir gün, çox güman ki, ətrafının da məsləhəti ilə İ.Rəhimovun toxumlarını ələ keçirməyi qarşısına məqsəd qoyur...

Bu sətirlərin müəllifi olaraq həmin vaxt yaşananlarla bağlı azçox məlumat almaq imkanım olduğundan, baş verənlər mənə gün kimi aydın idi. Üstəlik, bu xəbərlər nə qədər sirr kimi saxlanılsa da, müğənni ilə ortaq rəfiqələrimiz zaman-zaman hər şeyi detallı şəkildə danışırdılar. Doğrusu, həmin vaxt bütün bunlar mənim üçün o qədər də maraqlı deyildi. Ona görə də, bu məlumatları sadəcə dedi-qodu kimi dinləyir və çox vaxt da ciddiyə almırdım. Amma "mənbə"lərin etibarlılığına və informasiyanın səhihliyinə bu gün də əminəm.

Beləliklə, sonrakı günlərdə məlum oldu ki, müğənni R.Əliyeva İ.Rəhmovun onunla münasibətdən sonra rezin qarışıq atdığı toxumları ələ keçirməyin yolunu tapıb. Bu haqda geniş yazmaq istəmirəm. Qısaca olaraq onu deyim ki, bu iş üçün bir nəfər də ayrılıb. Həmin şəxs İ.Rəhimovun toxumları ələ keçirildikdən dərhal sonra onu süni mayalanma üzrə mütəxəssisə çatdırmalı imiş. Şübhəsiz, bu məqsədlə əvvəlcədən vaxtilə Bakıda çalışan türk həkimlə danışılıb, "əməliyyat" baş tutarsa, ona külli miqdarda vəsait ödəniləcəyi də vəd olunub.

Məlumata görə, onlar bir neçə dəfə iş adamının toxumunu əldə etməyə nail olsalar da, ilk vaxtlar müğənninin süni mayalanma yolu ilə hamilə qalması mümkün olmayıb. Deyilənə görə, beşinci, ya altıncı cəhddə Ruhi Əliyeva öz istəyinə nail ola bilib. Üstəlik, İlham Rəhimovdan ilk cəhddə bir deyil, iki uşaq dünyaya gətirib. Ən maraqlısı isə odur ki, o, bu sevincinin qarşılığında ona "qızıl sinidə" iki övlad bəxş edən türk həkimə fantastik məbləğdə mükafat verib. Bəzi iddialara görə, söhbət təxminən 300 min dollardan gedir. Bunun nə dərəcədə dəqiq bir rəqəm olduğunu deyə bilməsəm də, sözügedən vəsaitin qarşılığında həmin həkim Azərbaycandan köçərək, Türkiyəyə qayıtmalı imiş. Və elə də olub. Çünki R.Əliyeva onun bu sirrini bilən şəxslərin ətrafda "başıboş gəzməsindən" narahat olub, pulunu verərək, onların "gözdən, könüldən uzaq" olmasını istəyib. Müğənni ehtiyat edib ki, onun qurduğu tələdən İlham Rəhimov xəbər tutar və iş adamının övladını dünyaya gətirmədən bütün arzuları puç olar.

Şübhəsiz, yazımın bu yerində hər kəsi bir sual düşündürməyə bilməz: o illərdə sıradan bir müğənni olan Ruhi Əliyeva onu süni mayallanma yolu ilə İlham Rəhimovun uşaqlarının anası edən türk həkimə verdiyi böyük həcmdə vəsaiti necə və hansı yollarla əldə edib? Doğrudur, həmin vaxt onun bir sıra yüksək rütbəli məmurlarla əlaqəsi olub. Amma, yəqin oxucular da etiraf edər ki, kimsə sıradan bir tanışına deyildiyi qədər pul verməzdi. Veribsə, deməli, ya tərəflər arasında çox yaxın münasibət olub, ya da ortada daha ciddi maraqlar var.

Qismət olsa, bütün bu suallara üçüncü yazımda daha ətraflı aydınlıq gətirəcəm. Hələlik isə sadəcə onu deyə bilərəm ki, müğənni Ruhiyyə Əliyevanın İlham Rəhimovdan, eləcə də cəmiyyətdən gizlədiyi "böyük sirr" övladlarının oğurluq toxumlarla dünyaya gəlməsi deyil. Onun ən böyük sirrini növbəti yazıda açıqlayacam.

**G.Ə**

***P.S.*** *Kimlərsə düşünə bilər ki, mən niyə bu haqda zamanında deyil, illər sonra, yəni məhz bu gün yazmağı qərara aldım. Yaxud bu sətirlərin müəllifinin R.Əliyeva ilə hansısa qəsdi-qərəzinin olduğunu güman edənlər də ola bilər. Bəri başdan deyim ki, bu yazını yazmaqda məqsədim heç də hansısa müğənnini ifşa etmək deyil. Əslində, o, maraq dairəmdə olan şəxs də deyil. Amma ortada daha ciddi səbəblər var ki, bütün bunlar haqda oxucularıma geniş məlumat verəcəm.*

**Redaksiyadan: Bu yazı hazırda Avropada yaşayan və müəyyən səbəblərdən adını tam olaraq açıqlamayan xanım jurnalist tərəfindən qələmə alınıb. Yazıda qeyd olunan fikirlərlə bağlı maraqlı tərəflərin mövqeyini dərc etməyə hazırıq.**

# AAAF rəhbərliyi vergidən necə yayınır...

## Asif Lətifov: "Almadığım maaşa görə məndən vergi və sığorta haqqı tutulub"

## Abşeron sakini deyir ki, "Zirvə İnternational Sport Clubs" MMC-də idman məşqçisi kimi çalışdığı 1il 3 ayın maaşını ala bilməyib



## "Mənim adımdan tabelə saxta qol çəkərək, mənə yazılan məvaciblər mənimsənilib"

**Abşeron rayonu, Xırdalan şəhəri, 27-ci məhəllə, ev 2 B, mənzil 40-da yaşayan Lətifov Asif Aydın oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Saytımız vasitəsilə Prezident İlham Əliyevə, DTX rəisi Əli Nağıyevə və Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə müraciət edən şikayətçi Xırdalanda yerləşən AAAF Yaşayış Kompleksinin vəzifəli şəxslərindən şikayətçidir.**

**"Hörmətli Prezident!**
**Hörmətli Cənablar!**

Dəfələrlə mətbuatda və sosial şəbəkələrdə Xırdalanda yerləşən AAAF Yaşayış Kompleksində yaşanan problemlər və haqsızlıq haqda məlumatlı olsam da, bilməzdim ki, bu film kimi olayı mənim də başıma gətirəcəklər. Çünki, özlərinin bir sözü var, "gələn vergi və digər yoxlamaları "yağlayıb", lazımı qaydada yola salırıq".

2019-cu ilin fevral ayından peşəkar idmancı olduğuma görə, AAAF Yaşayış Kompleksində yerləşən "Zirvə İnternational Sport Clubs" MMC-yə məşqçi olaraq dəvət aldım. 12.06.2024-ci ilə qədər orada müəllim kimi xidmət etdim. Hətta pandemiya dönəmində də səhər 06:00-dan axşam 18:30-a qədər məşqçi kimi işimin başında olmuşam. Sıravi vətəndaşlarla yanaşı, güc strukturlarının əməkdaşlarına da dərs deyib, bilik və təcrübəmi bölüşmüşəm.

2024-cü il, iyun ayının 12-də "Zirvə" fitness zalının yeni icarədarının yanlış hərəkətlərinə, səhlənkarlığına və işlədiyim dönəmdə məvacibimin verilməməsinə etiraz etmişəm. Abrımı saxlayaraq, dərs dediyim tələbələrin bir qismini də götürərək, şəhərdə yerləşən digər idman zalına getmişəm. Hal-hazırda da dərs dediyim tələbələrin bir qismi imtahandan uğurla keçərək, DİN-in Polis Akademiyasında, FHN-nin Akademiyasında və DTX-nın Akademiyasında təhsil alırlar.

Bildirirəm ki, 2022-ci il, may ayının 15-dən AAAF Yaşayış Kompleksində yerləşən "Zirvə İnternational Sport Clubs" MMC-də növbəti dəfə məşqçi kimi ştata qəbul edilmişəm. Şəxsiyyət vəsiqəm və diplomumla mühasibatlıqda rəsmi məşqçi-müəllim işimlə bağlı sənədə qol çəkmişəm. Məvacibim də 400 manat göstərilib.

20.09.2023-cü ildə bizi mühasibatlığa



MÜRACİƏT VƏRƏQƏSİ
04.11.2024 12:49
LƏTİFOV ASİF AYDIN OĞLU
XIRDALAN ŞƏHƏRİ ABŞERON RAYONU MƏHƏLLƏ 27 MƏHƏLLƏ MƏNZİL 40 EV 2B
0552779947
VƏTƏNDAŞ ƏVVƏLKİ İŞ YERİNDƏ ("ZİRVƏ İNTERNATİONAL SPORT CLUBS"MMC) 2022-Cİ İL OKTYABR-DEKABR AYLARININ,2023-CÜ İLİN YANVAR-AVQUST AYLARI ÜÇÜN ƏMƏK HAQQININ ÖDƏNİLMƏDİYİNİ,İŞLƏDİYİ DÖVR ƏRZİNDƏ İŞ VAXTINDAN ARTIQ VAXTDA İŞƏ CƏLB EDİLDİYİNİ,ƏMƏK HAQQINA ƏLAVƏNİN VERİLMƏDİYİNİ BİLDİRMİŞ VƏ BUNUNLA BAĞLI ARAŞDIRMA APARILMASINI XAHİŞ ETMİŞDİR.
XIRDALAN ŞƏHƏRİ ABŞERON RAYONU
RAMİZ OĞLU
ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ SOSİAL AGENT



Azərbaycan Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında
Dövlət Əmək Müfəttişliyi Xidməti
Abşeron Xızı regional şöbəsi

Abşeron rayonu, Xırdalan şəhəri, 27-ci məhəllə, ev 2B, mənzil 40
Lətifov Asif Aydın oğluna

Sizin "Zirvə İnternational Sport Clubs" Məhdud Məsuliyyətli Cəmiyyətində əmək hüquqlarınızın pozulması barədə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığınız müraciətiniz əsasında Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Abşeron-Xızı regional şöbəsində baxılır.

Aqşin Əhə...



Sosial arayış
LƏTİFOV ASİF AYDIN OĞLU
A-0015

Gün ərzində 13 saat işlədərək, ona rəsmi yazılmış 400 manat məvacibini... 

çağırıb, ştatdan çıxmağımız təklif olundu. Sənədə qol çəkdirən Ülkər xanım bildirdi ki, "vergiyə görə bundan sonra qeyri-leqal işləyəcəm". Bizə ödənilməyən 1 il 3 ayın məvacibini tələb etdikdə isə dedilər ki, hamısı birdən ödəniləcək. Digər illərin məvacibini isə almışam, portalda rəsmi qeyd olunub.

Ödənilməyən əmək haqlarımla bağlı dəfələrlə AAAF Yaşayış Kompleksinin sədri Tofiq Heydərova rəsmi məktub göndərsəm də, hec bir cavab verilməyib. Məcbur olub 04.11.2024-cü ildə Əmək Əhalinin Sosial Müdafiə Nazirliyinin nəzdindəki Əmək Müfəttişliyi Xidmətinə müraciət etmişəm. Xahiş etmişəm ki, mənə ödənilməyən əmək haqqımla bağlı müvafiq araşdırma aparılsın. Həmin Xidmətdən sosial arayışımı alanda mənə bildirdilər ki, almadığım əmək haqlarına görə məndən vergi və sığorta haqqı tutulub. Hətta tabelə saxta qol çəkilərək, mənə yazılan məvaciblər mənimsənilib.

Qeyd etmək istəyirəm ki, məvacib bizə mühasibatlığın tabel kağızına qol çəkdikdən sonra nəğd təqdim edilirdi. Bu barədə Prezident Admnistrasiyasında Natiq müəllimin köməkçisinin qəbulunda oldum. Kiməsə zəng edərək məvacibimin dərhal ödənilməsini xahiş etsə də, artıq 7-ci aydır ki, pulumu ala bilməmişəm.

Mən borc və ya kredit istəmirəm, halal məvacibimi istəyirəm, hansı ki, kimlər tərəfindənsə mənimsənilib. İnanıram ki, Tofiq məllim Heydərovun bəlkə də bundan xəbəri yoxdur. Heç kim müəyyən olunmuş çərçivəni aşa bilməz. Dəfələrlə AAAF sədri Tofiq məllimin qəbuluna düşmək istəsəm də, oranın mühafizə rəisi buna imkan vermədi. Mənə bildirdi ki, "Tofiq kimdir, Zirvəni mən idarə edirəm". Rəhbərin adından danışmaq yaxşı hal sayılmır.

14.11.2024-cü ildə yenidən Əmək Müfəttişliyinə dəvət olunaraq ətraflı izahat yazsam da, bu günə qədər heç bir nəticə yoxdur. Azərbaycan Respublikası vətəndaşını 1 il 3 ay müddətində gün ərzində 13 saat işlədərək, ona rəsmi yazılmış 400 manat məvacibi mənimsəyənlər haqda qanunun tələblərinə uyğun niyə tədbir görülmür? Kimlərsə niyə mənim aylarla almadığım əmək haqqım mənimsənilməlidir?! Bu hansı qanunda var? Bu qanunsuzluğu edənlər niyə cəzalandırılmır? Günahsız vətəndaş kimi mən haqqımı istəyirəm.

12.07.2024-cü ildə AAAF-ın Emin adlı hüquqşünası 3 gün ard-arda mənə zəng edərək bildirdi ki, gəlim hansısa sənədə qol çəkim. Yalnız məvaciblərim mənə təqdim ediləndən sonra sənədə imza atacağımı bildirmişəm.

Bu barədə ətraflı Dövlət Təhlükəsizlik Xidmətinin Abşeron rayon şöbəsinin rəisi, polkovnik İlham Əliyevə də şikayət etmişəm. Lakin nəticə yoxdur.

**Hörmətli Prezident!**
**Hörmətli Cənablar!**
**Xahiş edirəm, bu məsələdə köməyinizi əsirgəməyəsiz".**

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Ögey qardaşı adına bahalı maşın aldı, kredit borcunu ödəmir...

## Masazır sakini Əhmədli Əhməd Əhməd oğlu qardaşından şikayətçidir

**Abşeron rayonu, Masazır qəsəbəsində qeydiyyatda olan Əhmədli Əhməd Əhməd oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Məktubu olduğu kimi dərc edirik:**




"Mən, Əhmədli Əhməd Əhməd oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

41 yaşım var. İndiyə kimi 1150 manat kredit borcumdan başqa, heç kəsə borcum olmayıb. İldırım Əhmədov mənim ögey qardaşımdır. 2013-cü ildə kredit yolu ilə mənim adıma 23 min 500 dollara "Hyundai Grandaur" markalı maşın alıb. Təbii olaraq, sahibi olduğu üçün maşını da hər zaman o - qarşdaşım İldırım Əhmədov sürüb. Bir müddət sonra o, kredit borcunu ödəmədi. Mən ona dedim ki, maşının pulunu ödəməsən, məni tutacaqlar. Dedi ki, səni niyə tuturlarlar, uzaqbaşı maşınımı əlimdən alarlar!

Qeyd edim ki, qardaşım yüksək vəzifələrdə işləyib.

2017-ci ildə polis rəisi Etibar Qazıbəyovun əmisi oğlu mənə dedi ki, sənədlərini hazırla, səni "parkovşik" işinə düzəldək. Bunun üçün öncə "ASAN Xidmət"dən məhkum olunmadığına dair sənəd almalısan. Mən "ASAN Xidmət"ə getdim. Orada ad və soyadımı görən əməkdaş polisə zəng edib bildirdi ki, axtarışda olan insan burdadır.

Polislər məni ilk öncə "ASAN Xidmət"in təhlükəsizlik şöbəsi rəisinin yanına, sonra isə bölməyə apardılar. Atama ordan zəng etdim. Dedim ki, İldırımın maşınına görə məni məhkəməyə aparırlar. Atam İldırıma zəng edib ki, qardaşını məhkəmədən çıxar. Bundan sonra İldırım məni buraxdırdı.

Qeyd edim ki, sonra mən SOCAR-da işə düzəldim. Maaşımın 50 faizi qardaşımn maşınına görə tutuldu. Amma nə qədər pul tutulurdusa, qardaşım mənə göndərirdi. Sonra mən ərizə yazıb işdən ayrıldım. Hal-hazırda işsizəm.

Keçən ilin sentyabrında qardaşım mənə dedi ki, görüşək, amma bu haqda heç kəsə heç nə demə. Əlavə etdi ki, qardaşın kimi, sənə hər ay 100-120 manat xərclik pulu da verəcəm, maşın üçün də 200 manat ödəyəcəyəm. Yanvarın 27-də bacımın toyu oldu. Qardaşım sentybardan yanvar ayına kimi mənə hər ay 100-120 manat pul verirdi. Yanvardan sonra bir qəpik də olsun pul göndərmədi. Təkcə may ayında 120 manat pul verib.

Avqust ayında mənə dedi ki, atan da, anan da ölüb, maşını mənim üçün aldığını kimə sübut edəcəksən?! Məsələ burasındadır ki, bir iş də tapa bilmirəm ki, gedim başımı aşağı salıb işləyim. Tapdığım işdə işləməyə də İldırım imkan vermir".

**"Hürriyyət"**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**



# Rusparəstlərin Qərb

## Və yaxud Azərbaycanla Qərb ölkələri arasındakı “gərginliyin” gerçək səbəbləri nələrdir?

**Rusiyanın illərdir “burda mənəm, Bağdadda kor xəlifə” şəklində meydan sulaması artıq onu dalana soxub, Kremli “izqoy”a çevirib. Azərbaycan da Rusiya kimi “izqoy”a çevrilib təklənmək istəmirsə, siyasi gerçəkləri nəzərə alıb, bu reallıqlardan çıxış etməlidir. Bunun üçün də rəsmi Bakı özünü ifadə üslubuna-tərzinə əl gəzdirməlidir. Ən azından Rusiyavari yox, Türkiyəni örnək alaraq məsafə qət etməlidir...**

Təbii ki, Qərblə münasibətdə yaranmış gərginlik hansısa möcüzə nəticəsində aradan qalxmayacaq. Bunu gözləmək ən azı sadəlövhlük olar. Ciddi danışıqlar aparmağa gəlincə isə, Azərbaycan öz orientrini Rusiyadan çevirməlidir və siyasi kompası öz milli maraqlarına yönəltməlidir. İlk öncə də bu siyasi kompas TDT-yə, Ankaraya dönməlidir

Deputat Həsənquliyev Türkiyəni Rusiya və İranla müqayisə etməkdə yanlışlığa yol verir. Türkiyənin xarici siyasət kursu assimilyasiyaedici və dağıdıcı deyil. Qardaş Türkiyə lokomotiv kimi, sözün əsl mənasında, arxasınca apardığı dövlətləri asayişə və qardaşlığa çatdırır. Rusiya və İran isə, bu gedişlə, qarşıdan gələn dövrdə, Türkiyədən fərqli olaraq, çöküşə namizəddir




Ötən həftə Milli Məclisdə deputatlardan biri tərəfindən maraqlı təklif irəli sürüldü. Təklifin müəllifi Qüdrət Həsənquliyev idi. O, Prezidentə yalnız məhkumları deyil, həm də istintaq altında olan şəxsləri əfv etmək səlahiyyəti verilməsini təklif etdi. Deputat bu məsələ ilə bağlı hökümətə belə bir çağırış etdi: ”Böyük D-8 təşkilatına üzv olmağımız münasibətilə xalqımızı təbrik edir və daha böyük təşkilat olan ÜTT-yə üzv olmaq üçün höküməti yubanmadan zəruri qərarlar qəbul etməyə çağırıram. Avropa İttifaqının son qətnaməsini, Qərbdən gələn təzyiq və təhdidləri qətiyyətlə pisləməklə yanaşı, ölkəmizin maraqları naminə Şərq müdrikliyi nümayiş etdirib, Qərb ölkələri ilə münasibətdə yaranmış gərginliyin hansısa möcüzə nəticəsində aradan qalxacağını gözləmədən, gərginliyin azaldılması istiqamətdə qarşı tərəflə ciddi danışıqlar aparmağı təklif edirəm. Nəzərə almalıyıq ki, zorun meydan suladığı dünyada yaşayırıq. Bu gün regionun böyük dövlətləri qardaş Türkiyə, Rusiya, İran kollektiv Qərb tərəfindən onlara münasibətdə təyin olunmuş sanksiyaların yumşaldılması üçün ciddi səylər göstərirlər”.

**Ötən həftə Milli Məclisdə deputatlardan biri tərəfindən maraqlı təklif irəli sürüldü. Təklifin müəllifi Qüdrət Həsənquliyev idi. O, Prezidentə yalnız məhkumları deyil, həm də istintaq altında olan şəxsləri əfv etmək səlahiyyəti verilməsini təklif etdi. Deputat bu məsələ ilə bağlı hökümətə belə bir çağırış etdi: "Böyük D-8 təşkilatına üzv olmağımız münasibətilə xalqımızı təbrik edir və daha böyük təşkilat olan ÜTT-yə üzv olmaq üçün höküməti yubanmadan zəruri qərarlar qəbul etməyə çağırıram...**

Maraqlıdır, Rusiyameylli deputat nə üçün belə bir təklif irəli sürdü və bu qərar ölkəmizin imicinə nə kimi təsir göstərə bilər? İlk öncə, deputatın dediyi kimi, Azərbaycan müsəlman ölkələrinin təmsil olunduğu D8 təşkilatına üzv oldu və bu qurumun artıq 9 üzvü var. Bu, əlbəttə ki, dövlətimiz üçün müsbət hadisədir.

Onu da nəzərə alaq ki, deputat bunun ardınca ÜTT-yə üzv olmağa çağırıb. Azərbaycan indiyə qədər bu təşkilata üzv olmayıb. Ekspertlərin rəyinə görə, ÜTT-yə üzv olmaqla milli bazarda rəqabət qabiliyyəti arta biləcək, bununla da istehlakçılar daha ucuz və keyfiyyətli mallara çıxış imkanları əldə etmək olar. Yəni tariflərin aşağı düşməsi xammal materiallarının, yarımfabrikatların və digər məhsulların ucuzlaşmasına gətirib çıxara bilər. Bu proses Azərbaycanın xarici ticarətdə investisiya əməkdaşlığını stimullaşdıra, ölkəyə inamı artıra bilər.

Eyni zamanda, bütün bunlar xarici ticarət prosedurlarının sadələşdirilməsinə, idxal-ixrac əməliyyatlarının, hesabatların beynəlxalq standartlara uyğunlaşdırılmasına, şəffaflaşdırılmasına, süni bürokratik əngəllərin azalmasına, gizli ticarət dövriyyəsinin və korrupsiyanın həddinin aşağı düşməsinə gətirib çıxara bilər.

Azərbaycanın ÜTT-yə üzv olması istehlakçıların seçim hüququnu da artıracaq. Yəni bazarda külli miqdarda mal olacaq və istehlakçı bu istiqamətdə əziyyət çəkməyəcək. Bu prosesdə istehlakçının seçim hüququ ilə yanaşı, malların təhlükəsizliyi, mallar haqqında informasiya almaq və digər çoxsaylı beynəlxalq hüquqlar da mühüm rol oynayacaq.

Digər tərəfdən isə ekspertlər ÜTT-nin əhaliyə məlum olmayan çox ciddi, mənfi cəhətlərindən biri kimi - üzv olan ölkələrin kənd təsərrüfatında subsidiyalara kvotaların qoyulmasını qeyd edirlər. Yəni əgər hər hansı bir ölkə ÜTT-yə daxil olarsa, ondan sonra o ölkə öz kənd təsərrüfatını inkişaf etdirmək üçün sonuncu ildə kənd təsərrüfatından gələn gəlirin 10 faizi qədər subsidiya qoya bilər. Artıq qoya bilməz. Onlar bu qurumun işini qlobal iqtisadi oyuna bənzədirlər və bildirirlər ki, burada udan və uduzan ölkələr var. Udan o ölkələrdir ki, onların iqtisadiyyatı güclü inkişaf edib, özlərinə təzə bazarlar axtarırlar. Lakin zəif ölkələr yalnız idxalçı ölkəyə çevrilir.

Deməli, hökumət administrasiyası bu qurum tərəfindən “udulmamaq” üçün daxili iqtisadiyyatı inkişaf etdirməyə məcburdur və bu da məcburi olaraq müsbət iqtisadi addımları zəruri edə bilər. Başqa tərəfdən isə ÜTT genetik motifikasiya olunmuş (GMO) ərzaq məhsullarının yayılmasının tərəfdarıdır. Hətta Amerika Ticarət Nazirliyində geni dəyişmiş (GMO) malların bəzi ölkələrdə tanınmamasını intellektual mülkiyyət barədə hüququn pozulması kimi qəbul edirlər.

Deputat Avropa İttifaqının son qətnaməsini, Qərbdən gələn təzyiq və təhdidləri vurğulamaqla yanaşı, ölkəmizin maraqları naminə Şərq müdrikliyi nümayiş etdirib, Qərb ölkələri ilə münasibətdə yaranmış gərginliyin hansısa möcüzə nəticəsində aradan qalxacağını gözləmədən, gərginliyin azaldılması istiqamətdə qarşı tərəflə ciddi danışıqlar aparmağı təklif edir. Biz də qeyd edək ki, Qərbin ikili standartlarına illərdir uzanan Qarabağ məsələsində şahid olmuşuq. Amma bu, ona əsas vermir ki, beynəlxalq müstəvidə yürüdülməli olan siyasət şəxsi müstəvi səviyyəsində çəkişməyə çevrilsin. Yəni manevrlərlə aparılan siyasi gedişlərə dövlətin ma-

raqları prizmasından yanaşmaq lazımdır. "Yetənə yetib, yetməyənə daş atmaq" kimi bayağı siyasi üslüb kimsəyə fayda verməz.

Yeri gəlmişkən, indi ölkəmizdəki bəzi Kremlpərəstlərin arxalandığı Rusiyanın illərdir "burda mənəm, Bağdadda kor xəlifə" şəklində meydan sulaması artıq onu dalana soxub, Kremli "izqoy"a çevirib. Azərbaycan da Rusiya kimi "izqoy"a çevrilib təklənmək istəmirsə, siyasi gerçəkləri nəzərə alıb, bu reallıqlardan çıxış etməlidir. Bunun üçün də rəsmi Bakı özünü ifadə üslubuna-tərzinə əl gəzdirməlidir. Ən

Rusiya və İranla müqayisə etməkdə yanlışlığa yol verir. Türkiyənin xarici siyasət kursu assimilyasiyaedici və dağıdıcı deyil. Qardaş Türkiyə lokomotiv kimi, sözün əsl mənasında, arxasınca apardığı dövlətləri asayişə və qardaşlığa aparır. Rusiya və İran isə, bu gedişlə, qarşıdan gələn dövrdə, Türkiyədən fərqli olaraq, çöküşə namizəddir.

Bölgənin hegemonluğuna yeni namizəd Türkiyədir. Türkiyə bölgənin yenidən geosiyasi şəkillənməsində mühüm rol oynayır, böyük işlər görür. Suriyada gedən proseslərdən bunu görürük. Azərbaycan cə-



# lə yaxınlaşmaq təklifi

azından Rusiyavari yox, Türkiyəni örnək alaraq məsafə qət etməlidir.

Təbii ki, Qərblə münasibətdə yaranmış gərginlik hansısa möcüzə nəticəsində aradan qalxmayacaq. Bunu gözləmək ən azı sadəlövhlük olar. Ciddi danışıqlar aparmağa gəlincə isə, Azərbaycan öz orientrini Rusiyadan çevirməlidir və siyasi kompası öz milli maraqlarına yönəltməlidir. İlk öncə də bu siyasi kompas TDT-yə, Ankaraya dönməlidir.

Qarabağ məsələsi həll edildikdən sonra, başda ABŞ olmaqla, Qərb rəsmi Bakıya "pas ötürüb", amma nədənsə Bakı buna əhəmiyyət verməyib. Əksinə, sanki Moskva müdaxilə edərək münasibətləri normallaşdırmaq üçün ortaya qoyulan iradəyə "pəl vurub". Nəticədə, Qərbin verdiyi "kart blanş" təsirini itirib. Ardınca isə Bakıya uzatdığı əlinin geri çevrildiyini görən Qərb hakimiyyətə qarşı daha sərt, laxladığıcı üzünü göstərməli olub ki, bu da Moskvanın "böyük canfəşanlıqla bəsləyib ərsəyə gətirdiyi töhfəsidir". Sözsüz ki, cəhənnəmə gedən yoldaşını çox istəyər. Moskvanın özü təcridlə üzləşdiyinə görə, hər vəchlə, hər fürsətdə Azərbaycanla Qərbin arasını vurmaq imkanını əldən vermir, hətta buna çalışır.

"Bu gün regionun böyük dövlətləri qardaş Türkiyə, Rusiya, İran kollektiv Qərb tərəfindən onlara münasibətdə təyin olunmuş sanksiyaların yumşaldılması üçün ciddi səylər göstərirlər", deyə deputat Həsənquliyev elə Türkiyəni

hənnəmə vasil olmağa namizəd olan Ruisya və İranın yanında yox, yüksəlişə gedən Türkiyənin yanında yer almalıdır. Bu, ölkəmizin artan rolunu daha da çoxaldacaq, bizi güclü oyunçuya çevriəcək. Biz Rusiyanın qucağında yox, Türkiyənin yanında olmalıyıq.

Təkcə seçki institutunun necə işləməsi Türkiyənin İran və Rusiya ilə müqayisə edilməsinin yanlışlığını göstərir. Rusiya 300 illik imperiya dönəmində Azərbaycanı sözün əsl mənasında sorub-sümürüb. İran isə fakitiki olaraq Azərbaycanı narkotik bataqlığına çevirərək, insanlarımıza qarşı narkogenosid aparır. Odur ki, Azərbaycanı Ruisya və İranla eyni sıraya qoymaq kobud yanlışdır. Üstəlik, dediyimiz kimi, Qərblə Bakının münasibətlərini alt-üst edən məhz Rusiyadır.

> Təkcə seçki institutunun necə işləməsi Türkiyənin İran və Rusiya ilə müqayisə edilməsinin yanlışlığını göstərir. Rusiya 300 illik imperiya dönəmində Azərbaycanı sözün əsl mənasında sorub-sümürüb. İran isə fakitiki olaraq Azərbaycanı narkotik bataqlığına çevirərək, insanlarımıza qarşı narkogenosid aparır. Odur ki, Azərbaycanı Ruisya və İranla eyni sıraya qoymaq kobud yanlışdır. Üstəlik, dediyimiz kimi, Qərblə Bakının münasibətlərini alt-üst edən məhz Rusiyadır.

Hətta onu da bildirək ki, ölkəmizdə "həyata keçirilən" siyasi həbslərin müəllifi də hakimiyyət aparatı içində məmur donuna girmiş rusbaşlılardır. Onlar Azərbaycanın tam müstəqil olmasının, asılılıqdan qurtarmasının qarşısını almaq üçün Rusiyadan yapışmağa, onu "sapoqunu yalamağa" məcburdurlar. Çünki Moskva

Azərbaycana təsir rıçaqlarını itirsə, onlar da mövqelərini itirəcəklər, hörmətli Prezidentimiz demişkən, "gorbagor olacaqlar".

Hazırda aparılan siyasi həbslərin müəllifi olan Kreml Azərbaycanın beynəlxalq imicini korlayır, bizə "siyasi xortdan" yarlığını yapışdırır. Moskvanın Bakıya qarşı qıcıqlanması o demək deyil ki, biz birtərəfli mövqe tutaq, yalnız Qərbə yaxınlaşaq. Amma Moskvanın da hərbə-zorbasını udmalı deyilik.

İndi isə gələk "Prezidentə yalnız məhkumları deyil, həm də istintaq altında olan şəxsləri əfv etməklə məsuliyyətdən azad etmək səlahiyyəti verən amnistiyaları əldə etmək haqqında qanun qəbul etmək" məsələsinə. Bu, beynəlxalq ictimaiyyət tərəfindən təcrid siyasətinə məruz qalmaq Azərbaycana müsbət şeylər qazandırmayacaq. Sözsüz, "həbs olunanlar" dedikdə burda əsasən jurnalistlərdən söhbət gedir. Ədalət naminə qeyd etmək yerinə düşər ki, COP29 tədbirinin gedişində xaricdən maliyyələşdiyi qəbul edilən media mənsublarının proseslərə yanaşması birtərəfli və qərəzli hesab oluna bilərdi.

Bundan başqa, bu tip media resurslarında vətəndaşların sosial problemlərinin işıqlandırılmasından daha çox, hakimiyyətin yeri gəli-gəlmədi tənqid olunması daha çox sezilir ki, bu isə qərəzli mövqe təəssüratı yaradır. Amma bu da onları həbs olunacaq qədər "təhlükəli cani" hesab etməyə əsas vermir. Onlar sadəcə danışırlar. Əgər onlar dövlət strukturlarında baş verən neqativ halları vurğulayırlarsa, buna görə onları qəbahətli hesab etmək doğru deyil. Çünki neqativ aktın mövcudluğu varsa, bu ört-basdır edilməməlidir. Əksinə dilə gətirilməidir ki, ona qarşı ölçü götürülsün.

Dövlətin, büdcənin vəsaitini çapıb-talayan rüşvətxor məmura qarşı mövqe sərt və barışmaz olmalıdır. Təbii ki, yuxarıda dediyimiz kimi, əgər mövzu dövlət strukturlarına xərçəng xəstəliyi kimi sızmış, metastaz vermiş korrupsioner məmurlardırsa. Yaxud problemlərə baxışda alternativ fikir və düşüncələr səsləndirilirsə, bu, heç bir halda dövlət çevrilişinə çağırış deyil. Alternativ fikir və rəylər, mövqelər həbslə, cəzaçəkmə müəssisələri ilə cəzalandırılmamalıdır. Media sahəsində tolerantlıq ölkəmizin imicinə daha çox fayda verərdi.

Üstəlik, belə media resurslarının Qərbdən maliyyləşməsi hökumətin ürəyini açmırsa, hakimiyyət onların Qərbin göstərişi ilə danışdığını hesab edirsə, onda onların müstəqil fəaliyyət göstərə bilməsi üçün iqtisadi mühit yaratmalıdır. Əlbəttə, Prezidentə nəinki məhkumları, istintaq altında olan şəxsləri də əfv etmək səlahiyyəti verilərsə, o da belə şəxsləri əfv edərsə, bu təqdiredilməli haldır, bunu alqışlamaq olar. Bəs məmurların korrupsiya sərgüzəştlərini ifşa etdiyi təqdirdə bundan sonra müxalif mövqeli jurnlaistlərin həbsə məruz qalması bu akta görə məsuliyyəti birbaşa Prezidentin üzərinə qoymayacaqmı? Bu səlahiyyəti Prezidentə verən qanunun qəbulu onun və dövlətin imicini müsbət şəkildə şərtləndirəcəksə də, həbslər davam edəcəyi təqdirdə məsələni neqativ tərəfdən birbaşa dövlət başçısına ünvanlayacaq.

Təbii ki, bu ehtimal qanunun qəbulunu təxirə salmamalıdır, amma məsələnin birbaşa prezidentin nəzarətinə və səlahiyyətinə keçməsi ilə ölkənin daxili və beynəlxalq ab-havasının başının üstünü qara buludların alması birbaşa Prezidentin müdaxiləsi yumşalda bilər. Əlbəttə ki, Prezidentin qərarına rusyönlü kənar təsirlərin aradan qalxması şərti ilə.

Sonda bir daha vurğulayaq ki, beynəlxalq ictimaiyyət tərəfindən təcrid siyasətinə məruz qalmaq Azərbaycana müsbət şeylər qazandırmayacaq. Media sahəsində tolerantlıq ölkəmizin imicinə daha çox fayda verərdi. Qonşu Gürcüstanın mayın 14-də "xarici agentlər" qanunu kimi də tanınan "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsini qəbulundan sonra Tiflisin başının üstünü qara buludlar elə alıb ki, hələ də özünə gələ bilmir. Bu baxımdan, ölkəmizin üstündən bərbad rus təsirini yoxa çıxardıb, dini tolerantlıq nümunəsi olduğumuz kimi, ölkəmizin siyasi mənzərsinə, reallıqlarına siyasi tolerantlığı da zərgər incəliyi ilə naxış salmalıyıq.

**Ülviyyə ŞÜKÜROVA**

**P.S. Şəxsən mənə gəlincə isə, dövlətin maraqlarını "yal müqabilində" satanlara elə "gorbagor olmağı" arzu edirəm.**




# Şəhid Vüsal Kazımovun həyat yolu...




Xalqımızın qeyrətli, mətin oğulları oddan-alovdan keçərək 44 günə əsir Qarabağımızı azad etdilər. Bu haqq savaşında Lənkəranın Yuxarı Nüvədi kəndində boya-başa çatan baş leytenant Vüsal Kamran oğlu Kazımov döyüş meydanında yağıya qarşı son nəfəsinə qədər vuruşub, şəhadətə qovuşdu. İndi Lənkəranda böyük də, kiçik də qəhrəman Vüsalla qürur duyur, onun xatirəsini əziz tutmağı özünə müqəddəs borc bilir. Vətən sevdalısının şəhadətə qovuşduğu dördüncü il münasibətilə vaxtilə oxuduğu Yuxarı Nüvədi kənd M. Mirzəcanov adına tam orta məktəbində anım tədbiri keçirildi.

Tədbirdə ilk öncə bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı, Azərbaycan Respublikasının Dövlət Himni oxundu.



Məktəbin direktoru Ramiz Ramazanov çıxış edərək dedi: - Şəhid Vüsal Kazımovun timsalında Vətən uğrunda canından keçən bütün oğulların etdiyi fədakarlıq xalqımız üçün hər şeydən qiymətlidir. Bu gün bizim ən böyük borcumuz 30 il düşmənə əsir düşən Qarabağımızı azadlığa qovuşduran igid Vətən oğullarının xatirəsini yaşatmaq, gələcək nəsillərə ötürməkdir.

Digər natiqlər də öz çıxışlarda 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun qazandığı tarixi zəfərdən, əsgər və zabitlərin keçdiyi şərəfli döyüş yolundan, şəhid ailələrinə, qazi və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıdan danışdılar.

Tədbirin bədi hissəsində şagirdlər Vətəni, qəhrəmanlığı tərənnüm edən mahnı və şerlər oxudular.

Qeyd edək ki, Vüsal Kazımov Vətən müharibəsində Füzuli əməliyyatında, Cəbrayıl döyüşlərdə, Xocavəndın, Şuşanın azadlığı uğrunda böyük şücaət göstərib. Sonuncu dəfə 26 oktyabrda ailəsi ilə əlaqə saxlayıb. Şuşada gedən ağır vuruşların birində həlak olub. 29 noyabr 2020-ci il tarixində Lənkəran rayonu Yuxarı Nüvədi kəndində böyük izdihamla yolunda can qoyduğu torpağa tapşırılıb. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", ", "İgidliyə görə", Xocavəndin və Füzulinin azadlığı uğrunda medalları ilə təltif olunub.

Bəli, Vətən, torpaq yolunda canından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəfdir. Bu zirvə sahibləri əbədi bir ömür qazanırlar. Şəhid Vüsal Kazımov kimi...

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Mirzəhəsən ömrünü Vətəni üçün yaşadı

## Şəhidin 32 yaşının tamamında Astara Pedaqoji Kollecinin bir qrup əməkdaşı onun ailəsinə baş çəkib



**İkinci Qarabağ müharibəsində Vətən, xalq yolunda özünü şüurlu sürətdə odun-alovun içinə atıb, son nəfəsə qədər düşmənə qarşı döyüşüb, şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan bir də Mirzəhəsən Əlizadədir. Astara elinin igid oğlu cismən aramızdan getsə də, mənən milyonların ürəyində yaşayır. Bizə canı, qanı bahasına qələbə sevincini yaşadan şəhid Mirzəhəsən həmişə, hər yerdə böyük ehtiramla xatırlanır və qərinələr, əsrlər boyunca da belə olacaq.**

Ulduz ömrü yaşayan Vətən sevdalısının 32 yaşının tamamında Astara Pedaqoji Kollecinin bir qrup əməkdaşı şəhidin ailəsinə baş çəkdi, eləcə uyuduğu müqəddəs yeri ziyarət etməklə oraya təzə gül çələngləri düzdülər.

Çıxışlar zamanı kollecin "Maliyyə və informasiya" şöbəsinin müdiri, şəhid mayor Kamran Fərəcovun həyat yoldaşı Nuranə müəllim bildirdi: "Şəhidlik ən yüksək, şərəfli zirvədir. Adı dillərdə dastana dönən Mirzəhəsən kollecimizin məzunu olub. Bütün arzuları Vətənlə bağlı idi. Canına yağı dadanmış yurdumuzun taleyi onu çox narahat edirdi. Kökdən gələn qürur, saf əqidə, təmiz vicdan, doğma Azərbaycanın hər daşına, torpağına olan ilahi sevgi Mirzəhəsəni bu müqəddəs yola apardı. O, ömrünü Vətən üçün yaşamaqla ölməzlik qazandı. İndi böyük bir xalqın qürur yeri, iftixar mənbəyidir". Mirzəhəsənin keçdiyi həyat yolu Vətəni necə sevməyi, öz halal torpağı qorumağı öyrədən bir məktəbdir. Mirzəhəsən kimi qəhrəman övlad tərbiyə etdikləri üçün Şahin müəllimə, Kəsirə xanıma həmişə minnətdar olmalıyıq.

Azərbaycanın yeni, şanlı tarixinə adını yazan Mirzəhəsən Şahin oğlu Əlizadə 12 yanvar 1992-ci ildə Astaranın Səncərədi kəndində dünyaya göz açıb. Vətənpərvər, qeyrətli bir oğul kimi böyüyən Mirzəhəsən orta məktəbi başa vurub, elə öz rayonunda fəaliyyət göstərən Pedaqoji Kollecin "Fiziki tərbiyə və İdman müəllimi" fakültəsində oxuyub. 2009-cu ildə ordu sıralarına yollananda əsas məqsədi yağı düşməndən qisas almaq olub. Cəbhə bölgəsində xidmət edən Mirzəhəsənin igidliyi, mərdliyi, dürüstlüyü onu əsgərlərin, zabitlərin sevimlisinə çevirib. Xidmət müddətini nümunəvi qaydada, üzüağ başa çatdırıb. Yağıdan alacağı öcə görə ömrünü hərbiyə bağlayıb.




Nəhayət, 2020-ci il sentyabrın 27-də Mirzəhəsənin arzuladığı məqam yetişib. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilanın azadlığı uğrunda böyük rəşadət göstərib. Qəhrəman döyüşçü hər dəfə dığaların üstünə qartal tək şığıyıb, onlara ürəyincə qan qusdurub. Həmçinin, yaralı əsgərləri ağır müharibə meydanından çiynində daşıyaraq çıxarmaqla onlara ikinci həyat verib. Mirzəhəsən Zəngilanda ayağından yara alıb. Qaldı ki, ağır vəziyyətdə də silahı əlindən yerə qoymayıb. Oktyabrın 20-də Vətən naminə ölüm-dirim savaşında şəhadətə qovuşub.

Özündən artıq sevdiyi doğma Azərbaycanın bütövlüyü naminə canından keçən Mirzəhəsən Əlizadə ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", Cəbrayılın, Qubadlının, Zəngilanın azadlığına görə medalları ilə təltif olunub.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**



# Vətənə ürəkdən bağlı olanlar...

**Vətən, torpaq uğrunda ölümdən qorxmadan özünü odun-alovun içinə atıb 44 günə Azərbaycanın yeni, şanlı tarixini yazan şəhid oğullarını xalq bir an belə unutmur. Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Masallı Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı sayəsində baş tutan "Vətəni ürəkdən başlayıb şəhidliklə bitən igidlərimiz" adlı anım tədbiri də Vətən şəhidləri polkovnik-leytenant Ramiz Cəfərov, Natiq Həşimov və leytenant Vüsal Məhərrəmovun yubiley günlərinə həsr olunmuşdu.**

Təşkilatçı müəssisələrin əməkdaşlarının, Masallı Dövlət Regional Kollecinin müəllim və tələbələrinin qatıldığı tədbirdə əvvəlcə Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi ehtiramla anıldı.

Tədbiri giriş sözü ilə açan muzeyin direktoru, Əməkdar Mədəniyyət işçisi Əntiqə Tağıyeva dedi: - Təcavüzkar Ermənistanın təxribatlarına cavab olaraq əks hücum zamanı 44 günə Azərbaycan öz ərazi bütövlüyünün bərpa və tarixi yurd yeri Qarabağı işğaldan azad etdi. Müharibədə qazanılan möhtəşəm qələbə xalqımızın birliyi, həmrəyliyi, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin misilsiz qəhrəmanlığı, əlbəttə, Müzəffər Ali Baş Komandanımızın sərkərdə məharəti, hücum diplomatiyasının və dəmir yumruğunun əzəməti sayəsində oldu.



Sonra muzeyin kiçik elmi işçisi Nazənin Heydərzadə, qalereyanın direktor əvəzi Təhmasib Məcidov Birinci Qarabağ müharibəsi şəhidi Natiq Həşimov, Vətən Müharibəsi şəhidləri Ramiz Cəfərov və Vüsal Məhərrəmov kimi igidlərin qısa, lakin şərəfli, hər gənc üçün örnək olan ömür yollardan böyük



qürurla söhbət açdılar, eləcə də onların valideynlərinə ehtiramını ifadə edərək vurğuladılar ki, nə qədər Azərbaycan var, qədirbilən Azərbaycan xalqı var şəhidlərin adları əbədi qəlblərdə yaşayacaq, xatirələri həmişə əziz tutulacaq.

Yekunda tədbir iştirakçıları tərəfindən muzeydə şəhidlərə aid eksponatlar nümayiş edilən bölməyə baxış oldu və xatirə şəkilləri çəkildi.

**Zəfər ORUCOĞLU**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

# “Valideynlik öyrənilməsi çətin “sənət”lərdən biridir”

## Defektoloq-loqoped Dilarə Atakişiyeva: “Sağlam düşüncəli uşaq böyütmək üçün ailə mühiti sağlam olmalıdır”

**Ana və ata olmaq hissi bizlərə bəxş olunan ən gözəl hisslərdən biridir. Nə qədər problem, sıxıntı olsa da, övladlarımızı qucaqladığımız zaman sanki bütün problemlərdən qurtulmuş oluruq.**

Lakin övlad sahibi olmaq istəyən ailə ilk gündən dərk etməlidir ki, ağır bir məsuliyyətin altına girir. Valideyinlər uşaqlarına onları sevdiyini və onlara qayğı göstərdiyini hiss etdirərək, onların əqli və emosional cəhətdən güclü olmasına kömək etməlidirlər. Övladımızın güclü, sərbəst fikirli olması biz valideynlərin əlindədir. Onlara daha çox vaxt ayıraraq, sevgimizi göstərməliyik. Sevgi almaq-verməklə bildirilmir.

Ümumiyyətlə, ailədə olan problemləri uşaqdan uzaq tutmaq lazımdır. Əks halda, uşağı yükləməklə onun gələcəyini məhv etmiş olarıq. Ailələri ilə daha keyfiyyətli vaxt keçirən uşaqların fiziki cəhətdən sağlam olma ehtimalı da yüksəkdir. Uşağınıza hər gün onu sevdiyinizi söyləyin. Uşağınıza onu niyə sevdiyinizi və dəyər verdiyinizi bildirin. Onlarla zarafat edin və gülün. Gülüş emosional sağlamlığı yaxşılaşdırmaq üçün əladır. Hər bir uşağın gələcəyi onu böyüdən ata-ananın əlindədir. Valideyn-uşaq münasibətlərində ən önəmli amil uşağa ayrılan diqqət və zamandır.

Qüsursuz insan yoxdur. Uşaqlar adətən valideynlərin istədikləri kimi rəftar etmirlər. Uşağın dəyişməsi üçün zamana ehtiyac var. Bəzi valideynlər övladlarının rəftarlarını qısa müddətdə dəyişdirə bilməyəndə ümidsizliyə qapılırlar. Uşaqlar təşviq edilməyi və tərifləmməyi xoşlayırlar. Valideyn onları təşviq edərək, yanlış rəftarlardan uzaqlaşdıra bilər. Valideyn övladından gördüyü xoşagəlməz rəftar zamanı tez özündən çıxmamalı və ona səbrlə etdiyi hərəkətin və yaxud da danışığın düzgün olmadığını başa salmalıdır. Gərgin həyat tərzi yaşayan ailələr isə xüsusi diqqətli olmalıdırlar.



Uşaqlar hər davranışlarını valideynlərdən götürür. Neqativ bir ailədə böyüyən uşaqdan, əlbəttə, pozitiv enerji gözləmək olmaz. Neqativ hissləri yaşayan aqressiyalı uşaqlar istər ailələrində, istər çevrələrində problem yaradır, vurur, qışqırır, dava edir və qaydaları pozurlar. Belə uşaqlar eyni zamanda böyüklər ilə kobud rəftar edir. Bu hərəkətlərinə görə cəzalandırılsalar belə, kobud hərəkətlərinə davam edirlər və hər zaman özlərinə haqq qazandırırlar. Eyni zamanda, başqalarının səhvlərini bağışlamır və qarşısındakı insanlara şiddət göstərirlər. Məhz bu səbəbdən də evdəki problemin böyüklüyünü uşağa bildirmək olmaz. Özümüzdə bilmədən onların gələcəyini məhv etmiş oluruq.

Elə bütün bu məsələlərlə bağlı Yevlax şəhəri, Mirzə Ələkbər Sabir adına 2 nömrəli tam orta məktəbin müəllimi, 2-ci ixtisası defektoloq-loqoped olan Dilarə Atakişiyeva ilə həmsöhbət olduq: “Azərbaycanda uşaqların müdafiəsi və onlara qayğı göstərilməsi istiqamətində çoxsaylı işlər görülüb və görülməkdədir. Ölkədə uşaqların problemlərinin həlli istiqamətində müxtəlif layihələr həyata keçirilməkdədir. Azərbaycanda uşaqların layiqli vətəndaş kimi yetişmələri, uşaqlarla bağlı sosial problemlərin həlli, uşaq hüquqlarının etibarlı təminatı baxımından dövlət səviyyəsində bütün addımlar atılır.

Alimlər deyirlər ki, həm qadınlar, həm də kişilər ata-ana olduqdan sonra bir sıra hormonal və psixi dəyişikliklər yaşayırlar. Əslində, ata olmaq da, ana olmaq kimi bioloji hadisədir. Hamiləlik və analıq qadın orqanizmində bir çox mühüm hormonal dəyişikliklərə səbəb olur və qadın bu hormonal dəyişikliklərə görə, analıq hissini təbii olaraq daha yüksək yaşayır. Belə fikirlər vardı ki, kişilər uşaq dünyaya gətirmədikləri üçün onların hormonlarında atalıqla bağlı heç bir dəyişiklik olmur və buna dair ümumi bir baxış bucağı vardır. Lakin bir çox araşdırmalar bunun əksini göstərdi. Ata olmaq kişilərdə də hormonal dəyişikliklərə səbəb olur, lakin bu dəyişikliklərin miqyası və xarakteri insandan insana dəyişə bilər. Bir sözlə, valideyn olmaq məsuliyyətdir. Valideynlik öyrənilməsi çətin

> “Valideyn uşaqlarının ən yaxın dostu olmalı, onlara bacardıqları qədər sevgi verməlidir”

“sənət”lərdən biridir, çünki həm ağla, həm də ürəyə əsaslanır.

Bildirim ki, mən əsasən nitq qusuru, psixoloji pozuntusu, zəifliyi, oxu-yazı pozuntulu uşaqlar və gənclərlə işləyirəm. Əlbəttə, mən də istəyərdim ki, vətənimdə bütün körpələri xoşbəxt, ailələri sevincli görüm. Uşaq - heç bir sözlə ifadə edilməyən və dəyəri heç nə ilə ölçülməyən əvəzsiz bir varlıqdır. Uşaqlar dövlətin gələcəyi, dövlətin möhkəmliyidir.

Son illərdə nitq qüsurlu, oxu-yazı pozuntulu uşaqlarla bərabər, psixoloji pozuntulu uşaq və gənclərlə də tez-tez qarşılaşırıq. Bu psixoloji sarsıntılar daha çox ailədaxili münaqişələr zəminində “qazanılmış” travmalardır və bu travmalar hər uşaqda və gəncdə özünü fərqli göstərir. Təbii ki, bütün psixoloji pozuntu və zəifliyi olan hər kəsə bunu şamil etmək olmaz.

Uşaqların sağlam psixologiya və düzgün tərbiyə alması üçün ilk növbədə ailə mühiti sağlam olmalıdır. Çox gözəl bir atalar sözümüz var: “Uşaq ailənin güzgüsüdür”. Bu problemləri aradan qaldırmaq üçün ən birinci uşağın və ya gəncin valideyinləri ilə görüşmək, lazımi məlumatları alıb, mövcud problemlə bağlı maarifləndirmək lazımdır.

Sağlam düşüncəli uşaq böyütmək üçün, qeyd etdiyim kimi, ailə mühiti sağlam olmalıdır. Valideyn uşaqlarının ən yaxın dostu olmalıdır. Onlara bacardıqları qədər sevgi verməlidirlər. Şiddət və qorxudan uzaq tutmalıdırlar. Əks halda, övladları yalançı və özgüvənsiz olar. Ana-ata övladının sevgi və güvənini nə qədər çox qazanarsa, övladı bir o qədər sağlam psixologiyaya və sağlam düşüncəyə sahib olar.

Mənim sizin qəzet vasitəsilə valideynlərə tövsiyyəm odur ki, uşaq hansısa səhvə yol verdiyi zaman onları danlayıb, cəzalandırmasınlar. Sevgi, səbr və təmkinlə düzgün istiqamət, yol göstərsinlər.

Qeyd edim ki, insan ən böyük səhvə qorxan zaman yol verir. Səhvini düzəltmək istəyərkən isə qorxu onu yeni, daha böyük bir səhvə aparır. Bu münvalla sonda acınacaqlı vəziyyət yaranır.

Bunların olmaması üçün övladlarınızı qorxudan, şiddətdən uzaq tutun. Hər nə olursa olsun, onların yanında durun. Övladlarınızın dostu, sirdaşı olun. Sevgi hər zaman uşaqların özünü yaxşı hiss etməsinin bir səbəbdir”.

**Hazırladı: Jalə FAMİLQIZI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# Kəlbəcər sakinindən nazirə müraciət

## "Sahil Babyev, gəl sənə göstərim ki, biz sakinlərə necə xəstə heyvan verirlər!"

### "Vicdanlı qurumlara müraciət edirəm, səsimizi Prezidentə çatdırın"



**Kəlbəcər rayonu, Oruclu kənd sakini, hal-hazırda Yevlax şəhərində yaşayan Alxanov Mərifət Əyib oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət daxil olub. Şikayətçinin redaksiyamıza göndərdiyi məktubu olduğu kimi dərc edirik:**

"Mən, Alxanov Mərifət Əyib oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, hərbçi olmuşam. Veteranlığım üçün müraciət etdim, onu da ala bilmədim.

Ailəliyəm, sağ qolum işləmir. Müharibədən sonra adımı Dövlət Məşğulluq Agentliyinə yazdırdım. 2 illik müraciətimdən sonra, nəhayət, bu ay 20 baş qoyun, 1 baş da qoç verdilər. Həmin vaxt bildirdim ki, bu xəstə heyvanları niyə verirsiz, bunlar bunlar ölmək üzərədirlər?! Mənə dediklər ki, götürürsən götür, götürmürsənsə, özün bilərsən, imtina verə bilərsən. Məcbur qalıb həmin heyvanları götürdüm. Gətirdiyim gündən həmin heyvanları müalicə etdirdim.

Heyvanların vəziyyəti o qədər pis idi ki, yaxınlıqda heyvanı olanlar yaxın buraxmırdı. Hər kəs qorxu içindədir ki, sənin heyvanlarınının xəstəliyi bizim heyvanlar da keçər. Mənə haqlı olaraq təzyiqlər olunurdu.

Onu da bildirim ki, ölən heyvanları baytar həkimlər gəlib yarırlar. Heyvanın birini yarmağa 10 manat alırlar. Mən bu heyvanları götürdüm ki, yaşayışımı biraz düzəldim, ailəmə baxa bilim. Bunları almadım ki, daha da borca-xərcə düşüm.

Belə başa düşürəm ki, Məşğulluq İdarəsi ilə baytarlar əl-bir işləyirlər.

**Hörmətli redaksiya!**

Özümün başıma gəlməyincə heç vaxt inanmazdım ki, bu qurum insanlara xəstə heyvanlar verir. O qədər baxımsız vəziyyətdə saxlanılır ki, heyvanlar ayaq üstə dura bilmirlər.

Heç bir yerdə işləmirəm, vəziyyətimiz çətindir. Bu qurumun əlindən belə zərər çəkən tək mən deyiləm.

Baytar həkimləri deyir ki, ölən heyvanları dərin basdır, xəstəliyi yayılmasın. 5 manat 50 qəpiyə yonca presi almışam. Məşğulluqdan verilən heyvanların hamısı ölür. Bu qədər haqsızlıq olar?

Sahil Babayev çıxışı zamanı əsəbləşərək deyir ki, elə bir şey ola bilməz, bilmədiyinizi danışmayın, həmin heyvanlara sağlamlıq kağızı verilir.

Sahil Babayev, gəl öz görməyən gözlərinlə gör ki, heyvanlar necə qırılır. Allah səni bizim kimi ehtiyac sahibi etsin, özün kimi də məmur sənə belə xəstə, yararsız heyvan versin.

**Hörmətli redaksiya!**

Mən sizin sayt vasitəsilə səlahiyyətli, vicdanlı qurumlara müraciət edirəm. Prezidentə səsimizi çatdırın. Sahil Babayev və dəstəsi biz vətəndaşları dövlətdən narazı salır, bizə zülm verir. Prezident Aparatının nümayəndələri, xahiş edirəm, səsimizi prezidentə çatdırın".

**Jalə FAMİLQIZI**

# Sahil Babayev nə üçün Qida Təhlükəsizliyi Agentliyini hədəfə gətirdi?

## Əhaliyə xəstə heyvanların verilməsinə görə AQTA məsuliyyət daşıyır, yoxsa nazir yalan danışır?

**Bir neçə gün bundan qabaq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Milli Məclisdə çıxışı zamanı bəzi deputatların əhaliyə xəstə heyvanlar verilməsi ilə bağlı iradlarına etiraz etdi. O, konkret olaraq bildirdi ki, deputat Siyavuş Novruzun xəstə heyvanlarla bağlı çıxışı əsassızdır. Nazirin sözlərinə görə, təqdim olunan hər bir aktiv, hər bir heyvan haqqında video-çəkiliş aparılır, təqdim olunma günündə onlar sayta yerləşdirilir.**



Üstəlik, S.Bababyev əlavə etdi ki, bu zaman Qida Təhlükəsizliyi Agentliyinin idxal sənədləri, xəstəlik, sağlamlıq, baytarlığa dair bütün sertifikatları da olur. "İstənilən fərd bizə dəmədən özləri daxil olub, ad-soyadını daxil edib saytda baxa, orada yerləşdirilən video-çəkilişləri görə bilərlər", - deyə nazir vurğuladı. Onun sözlərinə görə, Qida Təhlükəsizliyi Agentliyi istər xaricdən, istər də daxili bazardan alınan heyvanları yoxlayıb, onlara sağlamlıq arayışı verir. Daha sonra həmin heyvanlar 15 gün karantinə alınırlar. Məhz bundan sonra vətəndaşlara paylanılır.

Sahil Babayev Milli Məclisdəki çıxışı belə deməyə əsas verir ki, vətəndaşlara verilən heyvanların xəstə olmamasına görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi məsuliyyət daşımır, bütün məsuliyyət Qida Təhlükəsizliy Agentliyinin üzərinə düşür. O, dolayısı ilə bildirdi ki, əgər vətəndaşlara verilən heyvanlar xəstədirsə, yaxud yeni sahibinin evinə çatandan az sonra ölürsə, buna Qida Təhlükəsizliyi Agentliyi cavab verməlidir.

Maraqlıdır, qarşı tərəf - Qida Təhlükəsizlik Agentliyi nazirin bu ittihamlarını nə qədər əsaslı hesab edir? Bu və digər suallara cavab tapmaq üçün Qida Təhlükəsizlik Agentliyinə göndərdik. Agentliyin "Hürriyyət"in sorğusuna verdiyi cavabı oxucularımıza təqdim edirik:

"Müraciətinizə cavab olaraq bildiririk ki, xaricdən keçə bilən xəstəliklərdən qorunmaq üçün nəzarət tədbirləri görülür. Heyvanlar idxaldan sonra baytarlıq müayinəsindən keçir. Sağlam olduğu təsdiqləndikdən sonra təyinatı üzrə daşınır. Daşınma zamanı müvafiq sertifikatla təmin edilir.

Yemləmə, saxlama və zoogigiyenik şəraitlə bağlı təmin edilməsi heyvan sahibindən aslıdır ki, tələfatda bu amillər rol oynayır.

Qeyd edək ki, bu heyvanlarda xüsusi təhlükəli xəstəliklər aşkarlanmamışdır".

Qida Təhlükəsizlik Agentliyinin bu cavabından başa düşülür ki, burada bütün məsuliyyəti AQTA-nın üzərinə atmaq olmaz. Görünür, Sahil Babayev öz məsuliyyətini kimlərləsə bölüşmək istəyir. Necə deyərlər, "cəhənnəmə gedən özünə yoldaş axtarar". Amma Qida Təhlükəsizlik Agentliyinin cavabından da aydın olur ki, bu qurum ancaq xaricdən gətirilən heyvanlara sağlamlıq arayışı verir. Yerli bazardan alınan heyvanlar isə AQTA-nın iştirakı olmadan, məhz nazirlik əməkdaşlarının nəzarəti altında əhaliyə paylanılır.

**Jalə FAMİLQIZI**

# Gədəbəy sakinlərindən ölkə başçısına müraciət

## "Gədəbəyin dağ kəndlərində də kilsələr tikilsin, biz də qaz üzü görək"

**Gədəbəy rayonunun Kəlaman, Hacıalılar, Herkinaz, Kiçik Qaramurad, Daryurd kənd sakinləri tərəfindən Hurriyyet.az saytına şikayət daxil olub. Sakinlər saytımız vasitəsilə Prezident İlham Əliyevə müraciət edirlər:**




**"Cənab Prezident!**

Sizin hər çıxışınızdan ilham alıb, "bir gün düzələr" deyib, ümidlə yaşayırıq.

Biz Gədəbəy rayonunun Kəlaman, Hacıalılar, Herkinaz, Kiçik Qaramurad, Daryurd kənd sakinləri olaraq təklif edirk ki, yuxarıda adlarını qeyd etdiyimiz kəndlərdə yəhudi kilsəsi tikilsin. Kilsə tikilsin ki, "Azəriqaz" İstehsalat Birliyi tərəfindən adıçəkilən kəndlərə də qaz xətti çəkilməsinə başlanılsın.

Rayon İcra Hakimiyyəti məsələ ilə qəti maraqlanmır. "Azəriqaz" isə illərdir bildirir ki, sözügedən kəndin qazlaşması birliyin gündəmindədir, amma indiyədək heç bir tədbir görülməyib. Sanki, "Azəriqaz" İstehsalat Birliyi regionların qazlaşma prosesini öz maddi imkanları hesabına həyata keçirir, bu baxımdan mərhələlik prinsipi qorunur.

Güman edirik ki, növbəti mərhələlərdə "Azəriqaz" İstehsalat Birliyinin maliyyə imkanlarından asılı olaraq, bu kəndin qazlaşmasına baxılacaq.

Belə çıxır ki, "Azəriqaz" ın nə vaxt imkanı olacaq bizim kəndlərə qaz çəkəcək, olmayacaqsa ölənə kimi də qazsız qalacağıq.

14 ildir rayon İcra Hakimiyyəti biz sakinləri aldadır. Hər il "çəkiləcək" deyir, amma çəkilmir. Bu il də şəhid Etibar İsgəndərovun adına Hacıalılar kənd məktəbinə gəlib açıqlama verdi ki, kəndlərə qaz çəkilişi başlayacaq, layihədə var. Amma layihənin adı var, özü yoxdur.

Bundan əlavə, adını çəkdiyim kəndlərin yolları da bərbad vəziyyətdədir. Hər kəndin şəhidləri var. Kəlaman kəndinin 5 şəhidi, 30-dan çox müharibə iştirakçısı olmasına baxmayaraq, kəndin yolları, şəraiti bərbad gündədir.

Odunun qiyməti də 600-700 manatdır, almağa imkanımız yoxdur. Biz bilmirik ki, bu qışı necə başa vuracağıq.

**Cənab Prezident!**

Xahiş edirik, biz sakinləri bu ağır bəladan qurtarın. Evlərimiz soyuqdur, ailə üzvlərimiz xəstə olur. Kənddə bir neçə adam soyuqdan xəstəlik tutub ölüb. Azərbaycanın ən səfalı, gözəl güşəsini cəhənnəmə çeviriblər. Səsimizi eşidin".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**



# Populizmin sonu nə ilə nəticələnir?

**Populizm hələ ibtidai-icma dövrünün son mərhələlərində meydana gəlib, məhdud çərçivə və miqyasda mövcud olsa da, dövlət yarandıqdan sonra populizmin tətbiqi miqyası və çərçivəsi sürətlə genişlənməyə başlamışdır. Çünki dövlət yarandıqdan sonra onun idarə edilməsində, xüsusilə kütləni hər bir dövlətin məzmunu, mahiyyəti və formasına uyğun düşüncə, mənəviyyat, əxlaq çərçivəsində saxlamaq üçün geniş istifadə edilən vasitələrdən biridir. Həm də dünya əhalisinin günümüzdə səkkiz milyard nəfər, dövlətlərin sayının isə iki yüzdən çox olduğu bir vaxtda, populizm dünyada hər gün yüz milyard dəfələrlə təkrar olunan bir reallığa çevrilmişdir. Bəs, əslində populizm anlayışının mahiyyəti nədir? Bu gün cəmiyyətdə populizm anlayışını kütlənin hər hansı hadisə, proses və s. cəmiyyət üzvlərinin hamısının başa düşə biləcəyi sadə, bu gün çox işlənən terminlə desək populyar formada izah, şərh edilməsi kimi dəyərləndirilir.**

*(Əvvəli ötən sayımızda)*

SSRİ dövründə rus dilini kamil bilmək hər bir gənc üçün ən mühüm, perspektivli ali məktəblərdə ali təhsil almaqla yanaşı, bütün SSRİ məkanında təhsil aldığın hər hansı bir ixtisas üzrə işləyərək, öz bilik və bacarığına uyğun əmək karyerasında irəliləmək imkanı yaratmış olurdu. Hətta Azərbaycanın özündə az-çox əhəmiyyətli sahədə müəyyən vəzifə sahibi olmaq üçün hər bir kəsdən hökmən rus dilini bilməsi tələb olunurdu. O zaman respublika əhalisinin yuxarı və orta təbəqəyə mənsub olan insanları uşaqlarının az-çox mükəmməl təhsil alıb, ən azından bilikli, savadlı mütəxəssis kimi yetişərək, cəmiyyətdə mötəbər mövqe tuta bilməsi yolunda böyük əngəl olan rus dili problemini aradan qaldırmaq üçün birinci sinifdən rusdilli məktəblərə göndərirdi.

Əlbəttə ki, orta məktəbi Azərbaycan dilində bitirib, sonradan rus və ya digər xarici dili öyrənən, dil öyrənmək qabliyyətli gənclər o vaxt da olub, bu gün də var. Lakin bu istedada malik olanlar həm çox azdır, həm də onların hər hansı dili az-çox mükəmməl öyrənmək üçün tələb olunan müəyyən uyğun şəraitin olmasının zəruriliyindən başqa, onların bu dili, həmin dildə orta məktəbdə təhsil almış adam səviyyəsində mənimsəməsi, hər hansı bir adamın lotoreyada böyük uduş qazanması ilə eyni, təsadüfi haldır. Buna görə də, mən ölkədə əcnəbi dil məsələsinin ancaq kütləvi xarakterli prosesləri haqqında danışıram.

Bu gün də ölkədə aparıcı Avropa və digər dilləri öyrədən mərkəzlərdə təhsil alanlar yuxarı, bəzi hallarda da orta təbəqənin övladlarıdır. Çünki bu mərkəzlərdə təhsil haqqı çox yüksək olduğundan, cəmiyyətin mütləq əksəriyyətini təşkil edən aşağı, kasıb təbəqəsinin imkanı xaricindədir. Rus dilində təhsil isə dövlət təhsil müəssisələrində və pulsuz olduğundan, aşağı, kasıb təbəqə üçün öz uşaqlarının, Avropa və dünya səviyyəli bilik, savad almasa da, heç olmasa orta səviyyəli bilik, savad sahibi olması üçün rusdilli məktəblərdə təhsil almasına üstünlük verirlər. Bu, bir də onunla əlaqədardır ki, Avropa və digər inkişaf etmiş ölkələrə viza alıb getmək, orada qalıb yaşamaq, işləmək üçün çox böyük, çətin maneələr və sərt qaydalar olduğundan, Rusiyaya getmək üçün isə heç bir viza tələb olunmur və orada qalıb yaşamaq, işləmək üçün o qədər də çox çətinlik və maneələr mövcud deyil.

Yuxarı - varlı təbəqələrin və orta təbəqələrin bir hissəsinin uşaqları orta məktəbi ingilis, fransız dilli məktəbləri bitirərək və ya orta məktəbdə oxumaqla yanaşı, bu dilləri öyrədən kurslarda, hazırlıq mərkəzlərində yetərli səviyyədə öyrəndikdən sonra Avropa, ABŞ və s. dünya ölkələrində yüksək məbləğli ödənişlə ali məktəblərdə inkişaf etmiş ölkələrin elm, istehsal və xidmət tələblərinə uyğun səviyyədə təhsil alaraq həmin ölkələrdə də həmişəlik işləməyə və yaşamağa qalırlar. Hər iki halda bizim dilimizin daşıyıcıları assimilyasiyaya uğramaqla, millətimiz say etibarilə kiçilir.

Bəs dilimizin əriyərək kiçilməyinin səbəbi nədir? Dilimizin həcm, yəni söz fondu baxımından kiçilməsinin səbəbi ölkəmizdə elm istehsal, xidmət və digər sahələrin inkişaf sviyyəsinin, inkişaf etmiş millət və dövlətlərin həmin sahələrdə inkişaf səviyyəsindən müqayisəedilməz dərəcədə geri qalmasındadır. Belə ki, həyatın bütün sahələrinin inkişafı, həmin inkişafın baş verdiyi dövlətlərin hakim millətinin dilində yeni sözlərin yaranmasını labüd etməklə, həmin millətin dilinin söz fondunu say etibarilə çoxaldaraq zənginləşdirilmiş olur. Bu sahələrin Azərbaycanda geri qaldığı kimi, geri qalan ölkələrin əksəriyyətində həmin millətlərə məxsus olan söz və terminləri öz dilində olan söz fonduna məcburən mexaniki olaraq daxil edərək, öz dilini inkişafdan saxlamaqla bərabər, dilinin özü ilə yanaşı onun daşıyıcılarını da, dilinə daxil olan yad sözlərin faizi qədər assimilyasiyaya məruz qoymuş olur. Bunun milli təhlükəsizliyimiz üçün ən qorxulu, təhlükəli cəhəti odur ki, cəmiyyətimizin gələcəyinə malik beyinlərin axması, qaymağımızın düşmən əsarətinə düşüb, ayranımızın əlimizdə qalmasıdır.



> Bəs dilimizin əriyərək kiçilməyinin səbəbi nədir? Dilimizin həcm, yəni söz fondu baxımından kiçilməsinin səbəbi ölkəmizdə elm istehsal, xidmət və digər sahələrin inkişaf sviyyəsinin, inkişaf etmiş millət və dövlətlərin həmin sahələrdə inkişaf səviyyəsindən müqayisəedilməz dərəcədə geri qalmasındadır. Belə ki, həyatın bütün sahələrinin inkişafı, həmin inkişafın baş verdiyi dövlətlərin hakim millətin dilində yeni sözlərin yaranmasını labüd etməklə, həmin millətin dilinin söz fondunu say etibarilə çoxaldaraq zənginləşdirilmiş olur...

Bu gün 32 ildən bəri ölkədə mövcud olan quruluşun mövcudluğundan yaranan ikrah hissi ilə birlikdə, xaricə oxumağa getməyə nail olan gənclərimizə, xaricdə bir sıra ixtisaslar üzrə bu günün tələblərinə uyğun səviyyədə bilik verilsə də, gənclərimizi onlar üçün strateji əhəmiyyət kəsb edən sahələrə buraxmır, ictimai elm sahələrində isə Ocaqnəjdanın 30 il gənclərimizin beyninə dini ehkamlar yeridərək Tehranın molla rejiminə müsəlləh əsgərlər hazırladığı kimi, onlar da gənclərimizin beyninə bütün dünyaya demokratiya, azadlıq etalonu kimi sırıdıqları, ağa-nökər münasibətlərinə əsaslanan iqtisdai-ictimai sistemlərinin ideologiyasını yeritməklə, gələcəkdə ölkəmizi də ən yaxşı halda yarımmüstəmləkə durumunda istismar etmələrinə zəmin hazırlayırlar.

Bu gün Ocaqnəjdın yetişdirmələri Tehran rejiminin Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun mənafelərini əldə etməsi, müdafiəsinə Tehranın şovinist fars mollalarının heç bir beynəlxalq hüquqa sığmayan vəhşi, həyasız münasibət sərgiləməsinə susqunluqla baxıb, razılıq hissi ilə qarşıladıqları kimi, sabah da Rusiyanın, Qərbin Azərbaycana hər hansı bəhanə ilə müdaxiləsinə nəinki heç bir müqavimət göstərməyəcək, hətta yüz il öncə bizim «milli bolşeviklərimiz» kimi onların ən yaxın köməkçisi olacaqlar.

Öz ölkəsində yaşayıb vətəninə faydalı olmaq istəyən gənclərin mütləq əksəriyyəti təhsil alıb, vətənə qayıtdıqdan sonra iş tapa bilmədiyindən gözətçi, xörəkpaylayan, hətta adi fəhlə işləmək zorunda qalırlar. Hansı ki, pul, arxa hesabına ölkədəki heç bir yönlü mütəxəssis yetişdirməyən ali məktəblərin saxta diplomlarını alanların çoxu dövlət mexanizminin yüksək pillələrində rəhbər vəzifələrdə çalışırlar. Çünki mövcud quruluşlu dövlətə yüksək ixtisaslı, şüurlu, qanunauyğun işləyən insanlar yox, nadan, küt, ağasının bir işarəsi ilə istənilən cinayəti, alçaqlığı, yaltaqlığı etməyə hazır olan şəxsiyyətsiz ikiayaqlılar lazımdır.

Dünyanın ilk quldarlıq dövləti yaranan gündən bəri cəmiyyətin, hətta ayrı-ayrı təşkilati qurumların idarə edilməsində çox geniş istifadə olunan bu üsula, - "Dəvənin ovsarını eşşəyin noxtasına bağlamaq", deyirlər. Həm də bu idarəetmə üsulunun nə ilə nəticələnəcəyini də naməlum müəllifin yaratdığı, - "Guya bir dəvə sahibinin ölməkdə olan dəvəsindən, ona verdiyi əzablara görə bağışlanmasını istəyən sahibinə, - "Mənə verdiyin bütün əzabları sənə bağışlayıram. Amma bir dəfə mənim ovsarımı eşşəyin noxtasına bağladığını heç vaxt bağışlaya bilmərəm", - dediyi təmsildəki dəvənin cavabı ilə birmənalı olaraq bu idarəetmə üsulunun son nəticəsini dəqiq ifadə etmişlər.

*(Ardı var)*

**Şapur QASİMİ**

## Eldar Əhmədov (Qarqarçay) - 70

# Bir kitab şeir...



Allahverdi Eminov

**1.**

**Mən əyalətdə yaşayan və işləyən istedadlı yaradıcı insanlarla ya əyani, ya da qiyabi tanışlığımdan həmişə qürurlanmışam. Bu şəxslər "şəhərli" də, "bakılı" da ola bilərdilər, lakin doğulduğu kənd, oba onları çəkib torpağa bağlamışdır. Belə ya-radıcılardan Ramiz Qusarçaylı, Elşad Səfərli, Şəkər Aslan, Etibar Əbilov, Ru-hən-giz Əşrəfqızı, Tofiq Hüseynli, Mətləb Ağa... yaddaşımda yaşamaqdadır. Yeri gəl-miş-kən müxtəlif illərdə onların yaradıcılığı haqqında hətta monoqrafiyalar nəşr etdirmişəm. Ona görə ki, "gözdən uzaqdılar", ona görə ki, istedadlıdırlar, qələm sa-hibləridirlər. Ona görə ki, ədəbiyyata necə "vəsiqə" alıblarsa, ədəbiyyata etibarla-rını itirməmişlər. Ona görə ki, işlərinə laqeyd qalmamışlar, daxili təkan - ilham, ehtiras onları yazı masasına çəkmişdir.**

*(Əvvəli ötən sayımızda)*



Eldar Qarqarçayın poetik - nəsr dünyasında insanlıq təntənəsi heyrətlə səslə-nir, bu təbiidir, ona görə ki, peşəkar mühəndis kimi sənətini sevəndir, Azərbaycan Mühəndis - İnşaat İnstitutunda çay qurğularının və su - elektrik stansiyalarının hidro - texniki tikintisi üzrə peşəkar mühəndis olaraq uzun illər səmərəli fəaliyyət göstərmişdir. Eyni zamanda (1977-1985) komsomol, həmkarlar təşkilatı, partiya və sovet sistemində çalışmışdır. Ağcabədi Suvarma Sistemləri İdarəsinin rəisi vəzifə-sində işləmişdir. Həyat yolu keçmiş, insanların psixologiyasına daha yaxından bə-ləd olmuşdur. Görünür, həyatı öyrənməklə əməkçi adamların maraqlarına müsbət reaksiya vermiş ki, yaradıcılığında bu hisslərin əks - sədasını təsvir etmişdir, hər bir əsərində insan fenomeninə rəğbətini gizlətməmişdir. "İnsanlıq himni çalın-mışdır" mənsur şeiri belə bir niyyətlə yazılmışdır: "Doğulanların haqqı var yaşa-mağa, insan adını daşımağa?" - deyir və "Min ildir yenə də insanlıq zəfər çalmır, insanlıq bayrağı hər yerdə ucalmır, insanlıq əsil qiymətini almır", - qənaətinə gəlir. Amma yazıçı həyata nikbin baxır: "Yaşayırıq verilmiş ömrümüzü, tale payımızı", - pıçıldayır.

Eldar Qarqarçay yaxşı insanları - ziyalıları, qəhrəmanları unutmur, onlara əsərlər həsr edir, dünyasını dəyişənlərin xatirəsini əziz tutur. Cavad xana, Nazim Hikmətə, Yaqub Məmmədova, Qəşəm Aslanova, Xəlil Quliyevə, Elçin Qənbərova həsr etdiyi hekayələrində biz müəllifin kədərini yaşayırıq. Hər bir hekayədə bu insanların parlaq surətləri yaşayır. Eldar bəy unudulmaz əmiləri Əhməd Elbursa, Əbülfət Misiroğluna elegiyalar həsr etmişdir. Maraqlıdır mən bu iki istedadlı şəx-siyyətlə uzun illər ünsiyyətdə olmuşam, çörək kəsmişəm. Elburs həm də gözəl şair idi, alim idi, güclü yaddaşı vardı. Mən "Maarif" dövlət tədris nəşriyyatının baş re-daktoru təyin olunanda o, "Elm" nəşriyyatının baş redaktoru vəzifəsini daşıyırdı. "Qoburnat" bağında Göyçaylı Zülfünün məşhur çayxanasında görüşdük, məni təbrik elədi və təzə yazdığı iki şeirini oxudu. Eldar bəyin "Ruhumuz işıq səvəndi" hekayəsini oxuyanda xatirələrə qayıtdım. Elburs Əhmədin "İnam və idrak poetik-ası" traktakından bəzi yerləri necə həvəslə oxuduğu hələ yaddaşımdadır.

*Məndən soruşmayın, yolum haradır,*
*İşığam, hər zərrəm bir yol yaradır. -*

Elbursa məxsus beytdir!

Elbursun kiçik qardaşı Əbülfət Misiroğlu (bu imza ilə tanınırdı) ilə radioda işləyəndən tanıyırdım, ilk hekayəsi (adını xatırlamıram) "Azərbaycan gəncləri" qəzetində çıxmışdı. Elə sevinirdi ki! O, çox istedadlı gəncdi, qələm sahibiydi, tez-tez görüşürdük. Mən o vaxt Dövlət Televiziyasında müəllifi və aparıcısı olduğum "Pedaqogika" verilişinin montajı zamanı Əbülfətlə görüşürdüm, son dərəcə nikbin oğlandı. Eldar bəy "Üzü bəri baxan dağlar" lirik hekayəsini əmisinin xatirəsinə həsr etmişdir. Bu mənsur hekayə Əbülfətin mənə doğma olan surətini bir daha yada saldı, "sözünün yerini bilən, müdrik fikirli və düşüncəli" idi. Heyif az yaşadı, "Qırmızı alma" hekayəsilə ədəbiyyata gəlmişdi, səmimi qələmi, hərarətli ürəyi vardı: "Sən uzaqgörən, iti zəkalı, orijinal ideyalı bir vətəndaş - ziyalı, yazıçı idin", - yazan Eldar bəy tamamilə haqlıdır və əmisi barədə elegiyasını pıçıldayır. "Sən milli düşüncəli, sən bir yurd fədaisi idin", - bu sözlər Əbülfətə yaraşır. Qala təpə yanında dəfn olundu, əziz dostum, başdaşın susmuş heykələ dönmüşdür, sən isə susan deyildin, sözlü - söhbətcildin. Qardaşın Elburs o vaxt sağ idi, səni və qardaşın Yusifin ziyarətinə gəlmişdi və bir bəndlik şeir demişdi:

***Ruhum - məsləkimdi, canım - vətənin,***
***Məzarın Vətənin gərəyi olsun.***
***Vətən sərhədində dəfn edin məni,***
***Başdaşım bir sərhəd dirəyi olsun!***

**4.**

Eldar Qarqarçay ürəyi dolu şairdir, amma bu, o demək deyil hər gün, hər saat şeirə köklənir - belə düşünməzdim. Axı, şeirin yazılması müddəti: dəqiqələri, günləri müəyyən deyilsə nəticədir. Poeziyada Zaman - Vaxt şairi özünə həmdəm sayır, onunla razılaşır. Poeziya sənətində şair qayəni, yozumu inkar eləmir, ov-qatının gəlişini gözləyir. Poeziya bütün hallarda öz əxlaq sistemini qurur, yaxud qurmağa çalışır. Ona görə də şeirə yalnız gözəllik predmeti kimi yanaşmaq birtərəflikdir. Mən Eldar Qarqarçayın şeirlərini oxuyanda bu qənaətə gəldim. "Vətən", "Varlığımın adı Vətən", "Ana dilim" və sair şeirlərində şairin müqəddəs hissləri əyaniləşir:

***Torpağında göyərim mən,***
***bitim mən,***
***Sən ünvanlı nəğmələri***
***ötüm mən,***
***Çağır gəlim, harayına***
***yetim mən, Vətən! -***

Şairin Vətən sevgisidir və bu şeiri Eldar xalq şairi Söhrab Tahirə həsr etmişdir. "Şuşam gözlər bizi" şeirini yazanda Qarabağın tacı olan bu şəhər işğal altında idi, Şuşanın da gözləri yol çəkirdi.

***Cıdır düzü yetim qalıb,***
***Xarı bülbül itib, qalıb?***
***Sultan bəyi yada salıb -***
***Şuşam hər gün gözlər bizi...***

Nəhayət, şair istəyinə Şuşası ilə qovuşdu. Eldar Qarqarçay vurğuladığım ki-mi - qəlbi, ürəyi, sinəsi dolu bir insandır, sözlü - söhbətli şairdir. Belə təbiətli insanlarda hərarətli sevən hisslər güclü olur. Sevgilə süslənmiş şeir - poeziya ilk misrasından son sətrinəcən ruhdur, məhəbbətin təzahürüdür. Sevgi - məhəbbət şeirlərində, adətən, aşiqlərin sevgiyə qarşı davranış modelinin qurulmasına imkan yaranır, digər dəyəri isə şeirin ekspressivliyidir, yəni duyğuların inikasıdır. Eldar bəyin həm mənsur hekayələrində və esselərində, həm də şeirlərində şair vurğunlu-ğu oxucunun hisslərini oyadır. "Yolları öpür baxışım", "Yaşaya bilmərəm", "Sənsiz olsam", "Sənsən sevgi nübarım", "Məni mənə qaytar" şeirlərini oxuyanda "Ruhi fatehlik"i yaşadım, şeirin estetik və gözəllik qüvvəsinə inandım:

***Sənsizlik içimi göynədir, yaxır,***
***Sən məni, sən məni, niyə unutdun?***
***Göz yaşım gözümdən könlümə axır,***
***Sən məni, de, məni niyə unutdun? -***

Deyə şairi anlamaq çətin deyil, vüsal üçün həsrət çəkər, gecə - gündüz yol gözləyər, amma eşqin sonu qəm deyilmi?!

***Bu dünyanın qəmi boldu,***
***Çətin olur eşqin yolu,***
***Gözləyirəm, gözüm dolub,***
***Məni dərdlər, döyər, gözəl!***

Eşq - sevgi deyil, cinsi enerjini rədd edir, aşiqi tənhalığa aparır və Ruhla qovuşur. Bu baxımdan bu enerji - "libido" şairdə özünü daha tez tapır və sönmür, sevgi isə aşiqini itirmir, ona qovuşur. Sevgi - məhəbbət şeirləri həsrətin solmayan çiçəyidir, vaxtsız açılarsa "sevən taylar"ın yaddaşında hər səhər açılır, ətrini saçır. Belə bir hissləri yaşayan Eldar Qarqarçayda sevgisi poeziyasında fərdidir, hər kəsə qismət deyil, İlahi paydır, sentimentallıq əzəmətidir, heyrət və təntənədir, Ruhun qiymətidir, özünün dediyi kimi:

***Yolumda sən, izimdə sən,***
***Ürəyimdə, gözümdəsən,***
***Ruhumdasan, özümdəsən,***
***Ruhum, məni mənə qaytar!***

**5.**

Şair Eldar Qarqarçay - Əhmədovun son kitabı "Bəlkə bir də görüşdük" adlanır. Bu poetik və nəsr məcmuəsini xeyli əvvəl oxumuşdum, arabir yaşadığı Ağcabədidən arasıra mənə zəng çalır, söhbətləşirdik, "görüşərik", - söyləyirdi. Və bir gün Bakıda görüşdük, saatlarla söhbətləşdik. Şirin, emosiyalı danışığı mən-də zəngin təəssürat yaratdı. Vaxtın necə sürətlə ötdüyünü hiss eləmədim. - Müəl-lim, - astadan dilləndi. - Nəhayət, biz görüşdük, sizi daha yaxından tanıdım. Sağ-lıq olsun, bir də görüşərik, amma Bakıda yox, Ağcabədidə, Qarabağ torpağında...

Hürriyyət
Sərbəst
SİZİN ÜÇÜN QƏZET
№48 (3339) 24 Dekabr / 2024-cü il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


# “Azercell” operatorunun növbəti “2 AZN-lik limit oyunu”




## Mobil operatorlar niyə abunəçilərin cibinə girirlər?

**Sumqayıt şəhər sakini Məmmədkərimov İlkin İlqar oğlu tərəfindən Hurriyyet.az saytına şikayət məktubu daxil olub. Şikayətçi “Azercell” mobil operatorundan şikayətini bildirir.**

“Mən, Məmmədkərimov İlkin İlqar oğlu yazaraq xahiş edirəm ki, yazdıqlarımı ictimailəşdirəsiniz. Şikayətim “Azercell” mobil operatorundandır. Belə ki, Azərbaycanda mobil operatorların vətəndaşların cibinə girdiyi artıq hər kəsə bəllidir. Demək olar ki, bütün operatorlarda qiymət artımı surətlidir.

“Azercell” operatoru qeyd edir ki, 1 Fevral 2025-ci il tarixindən etibarən aylıq 2 AZN-lik limit tətbiq edəcək. Yəni abunəçilər hər ay balanslarına məcburi qaydada 2 AZN vəsait yükləməlidirlər. Əgər 2 AZN-dən az vəsait yüklənilsə və ya balansa ümumiyyətlə vəsait yüklənilməsə 2 AZN xidmət haqqı tətbiq ediləcək və “Azercell” abunəçinin balansından 2 AZN silecək. Yəni cibimizə girəcəklər, bu isə oğurluqdur”, deyə şikayətçi iradını ifadə edib.

“Abunəçinin razılığı olmadan mobil operatorun nə ixtiyarı var ki, balansımızdan vəsait silsin. Və yaxud da zorla hər hansısa paket verilir. Sən aktiv etməsən də baxırsan ki, hansısa paket aktiv olunub”, deyən Sumqayıt sakini, “Bu istehlakçı hüquqlarının pozulmasıdır. Digər operatorlarda heç olmasa silinən pulun yerinə 2 AZN müqabilində şəbəkədaxili 60 dəqiqə və 1,2 GB internet paketi verilir. “Azercell”-də isə ümumiyyətlə heç bir dəqiqə və internet paketi verilmir, balansdan sadəcə 2 AZN silinir”, deyə bildirir.

Şikayətçi sözlərinə belə davam edir:

“Qeyd edim ki, abunəçi balansını kredit vasitəsi ilə və ya “Paycell” vasitəsi ilə artırsa, yaxud digər nömrədən balansa vəsait yükləsə belə, bu aylıq sərfiyyat limiti kimi hesablanmır, nəticədə abunəçi məcburi qaydada balansa öz pulu ilə vəsait yükləməlidir. Buna məcbur edilirik.

Əvvələr danışıq kartının istifadə müddəti bitdikdə, nömrənin xətti 180 gün, yəni 6 ay birtərəfli qaydada bağlı qalırdı, balans artımı olmadıqda, nömrə ləğv edilirdi. İndi isə bu müddət 90 günə, yəni 3 aya endiriləcək.

Halbuki bütün dünyada xəttin bağlanılması anlayışı yoxdur, bu yalnız Azərbaycanda var. Xatırladım ki, “Azercell” bir neçə ay öncə danışıq kartlarının müddətini azaltmış, bu ay isə bütün tarif paketlərində qiymətləri kəskin şəkildə qaldırmışdı. Bildiyiniz kimi, elə bir ay yoxdur ki, hər hansısa xidmətin qiyməti bahalaşmasın. “Azercell” isə qiymətləri guya xidmət səviyyəsinin yüksəldilməsi üçün bahalaşdırdığını desə də, xidmət səviyyəsi əksinə daha da azalıb. Əvvəllər telefon mərkəzinə edilən şikayətlərə zənglə geri dönüş edilirdisə, indi isə sadəcə şablon şəkildə SMS ilə cavab verilir. Əvvəllər telefon mərkəzində abunəçi həll edilməyən şikayətlər ilə bağlı qrup rəhbəri ilə danışa bilirdisə, indi bu da ləğv edilib. Abunəçi şikayətini heç bir yetkiliyə ünvanlaya bilməz.

Bundan başqa, “Azercell” 2023-cü ilin maliyyə hesabatını hələ də açıqlamayıb. Artıq 8 gün sonra 2024-cü ilin sonudur və şirkət 2024-cü ilin maliyyə hesabatını açıqlamalıdır, amma 1 ildir ki, 2023-cü ilin maliyyə hesabatı açıqlanmır. Bununla bağlı telefon mərkəzinə iyul ayından müraciət etsəm də həmin vaxt, ”Təklifiniz bizim üçün çox önəmlidir, istəyinizin tətbiqi imkanları araşdırılacaq” şəkilində şablon şəkildə SMS göndərib götürüb qeydiyyatı bağladılar. Həmin vaxt “Call Center”dən xanım operator, ”Yəqin ki, yaxın vaxtlarda maliyyə hesabatı sayta qoyulacaq, ona görə qeydiyyatı bağlayıblar” şəkilində cavab verdi.

Daha bir neçə ay gözləyib noyabr ayında telefon mərkəzinə maliyyə hesabatı ilə bağlı yenidən müraciət etdikdə, operatorlar mənə göndərilən şablon şəkildə SMS-i əsas gətirərək, “sizə artıq cavab verilib və bununla bağlı baş ofislə əlaqə saxlamalısınız” formasında qarşılıq verdilər. 26 noyabr tarixində Baş ofislə əlaqə saxladım, lakin müraciətimi yenidən qeydə aldıqdan sonra 1 aydır ki, ona cavab verilmir. Ümumilikdə isə iyul ayından bəri 5 aydan çoxdur ki, məsələ ilə bağlı bir nəfər belə əlaqə saxlayıb məlumat vermir. Keçən il də eyni hal baş verməşdi. O zaman da maliyyə hesabatı may ayında açıqlanmışdı.

Həmin vaxt müraciətimə Vəfa adlı xanım zəng edərək, ”İlkin bəy narahat olmayın, hesablanma gedir. Yaxın vaxtlarda maliyyə hesabatı sayta qoyulacaq” deyə cavab vermişdilər. Maliyyə hesabatını gizlətməyin bir səbəbi var. Bildiyiniz kimi, 2018-ci ildən “Azercell” dövlət şirkətidir və “TeliaSonera” 2015-ci ildən Avrasiya regionunu tərk edəcəyini açıqladıqdan sonra “Azercell” 2018-ci ilədək 3 il zərərlə çalışdı və Rabitə Nazirliyi məcbur olub “Azercell”-in 51%-lik payını “TeliaSonera”-dan 222,5 milyon dollara aldı. Həmin vaxt Rabitə Nazirliyi hər kəsi əmin edirdi ki, “Azercell” gəlirlə fəaliyyət göstərməyə başlayandan sonra yenidən özəlləşəcək. Belə görünür ki, bu yaxınlarda “Azercell”in özəlləşmə məsələsini gündəmə gətirəndən sonra İKT üzrə ekspertlər narahat olublar və maliyyə hesabatını gizlətməyə qərar veriblər. Əslində mobil rabitə sahəsində, ümumiyyətlə İKT sektorundakı bərbad xidmətin və qiymətlərin durmadan artmasının oğurluq hallarının əsas səbəbi inhisarçılıq və monopoliyadır. Yəni bütün dünyada fəliyyət göstərən “Vodafone”, “Orange”, “T-Mobile”, “MTS”, “Beeline” və s. şirkətlərin bazara girməsinə imkan verilmir. Dövlət qurumları da illərdir ki, mobil operatorların oğurluğunu görməməzliyə vururlar. Yəni dünyanın heç bir ölkəsində mobil operatorlar heç bir səbəb olmadan qiymətləri durmadan bahalaşdıra və absurd qərarlarla abunəçidən oğurluq edə bilməzlər”.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adı şəkilən qurumun mövqeyini dərc etməyə hazırıq.**

**Hidayət RÜSTƏMBƏYLİ**

*Hüqüqşünas, Azərbaycan Jurnalistlər Birliyinin üzü*



# Peyğəmbərin azərbaycanlı olması...

### III YAZI

Romada Müqəddəs Pyotrun Monastrında 652-ci ildə xristianlıq qəbul olunmuşdur. Onu da biləsiniz ki, yer kürəsində bütpərəstlik inancından sonra islamın təməli olan, Tövhid dini - Tək Allaha inanc, 3-cü peyğəmbər Ibrahim Azər oğlu - Ibrahim Xəlil Peyğəmbərə nazil olmuşdur. Ibrahim Xəlil peyğəmbər Nuh peyğəmbərinin oğlu Yafəs nəslindəndir. Yafəs nəslindən 15 xalq yaranmışdır.

Babilistan qülləsinin 32 mərtəbə olması memarlıq qabiliyyətləri ustalığı ilə baş tutmuşdur. Hammurapini tarixdən oxumuş olarsınız. Cəbəllütariq boğazı, Ibrahim Xəlil peyğəmbərin əmisi Tarixin adı ilə bağlıdır. Dünya tufanından sonra Nuh peyğəmbərin gəmisi Ağrı dağının zirvəsində lövbər saldıqdan sonra oğlu Yafəs Atropatena-Azərbaycan-Albaniya, şimaldan Atropateniya Azərbaycanın Midiya imperiyasından - Qadirona qədər uzanıb gedir.

Bütün tarixi bir məqalədə yazmaq qeyri-mümkündürg Topladığım bütün materiallar sübut edir ki, peyğəmbər azərbaycanlıdır, Azərbaycanın Quba rayonu ərazisində yerləşmiş 2 kənd: Nügədi - 1, Nügədi - 2 Nuh peyğəmbərin adı ilə bağlıdır. İndiki Şəki şəhərinin adı Nuh peyğəmbərin adı ilə Nuxa şəhəri adlanırdı. Həmçinin, Naxçıvanın adı da Nuh peyğəmbərin adı ilə bağlıdır - Nuh çıxan dəməkdirg

Aprel-may ayları 2024-cü il tarixlərdə YouTube kanalında dünya tarixi üçün son dərəcə əhəmiyyət kəsb edən qiymətlə məlumatlarla tanış oldum. Bu məlumat təxmini «Xəzər Albaniyası» adı verilmiş pəncərədən bildirilmişdir ki, guya Özbəkistanın İssıkul gölündən eramızdan əvvəlki dövrlərə aid xaç daşı tapılmışdır. Qeyd etdiyim kimi, məlumat sahiblərinin iddiasına görə, müəyyən olunmuşdur ki, həmin xaç daşı xristianlığa aid deyil, Ulu Türkün damğasıdır.

Bu faktı dəqiqləşdirmək üçün YouTube internet kanalı vasitəsi ilə araşdırma apardım. “Planeta Zemlya” TV kanalında aşkar etdim ki, İssıkul gölü Özbəkistanda yox, Qırğızıstan Respublikasındadır. Türkcə “İssıkul” sözü İstigöl deməkdir. Bəli, həmin göldən eramızdan əvvələ aid daş tapılmışdır. Bu daşın üzərində xaç işarəsi yoxdur və yazılmayıb, yalnız döymə-yonma, tatirovka üsulu ilə Çərxi-Fələk + həkk olunmuşdur. Çərxi-Fələyə həmçinin xoşbəxtlik rəmzi + Fortuna deyilir.

Məqaləmdə çox yerdə qeyd edirəm ki, Çərxi-Fələk “üstə gəl” + plyus işarəsi görkəmindədir. Onun hər tərəf bərabərdir, ona görə də dövr - dövran edə bilir. Özü də müsəlman türk dünyasına Teqrqi Xan Tanrı tərəfindən bəxş olunmuş ilahi möhürdür. Göy Türklər də eramızdan əvvəl bu inancı qəbul etmişlər. İssıkul gölündə tapılan həmin müqəddəs daş Göy Türklərin ustalığı ilə hazırlanmışdır...

Ayılın qəflət yuxusundan...İsus Xristosun ölüm qurğusu, “T” hərfi şəklində C xaç dedikləri işarə Çarmıxdır. Yuxarıdan əllər, aşağıdan ayaqlar - əllər pəncə içərisindən, ayaqlar pəncə üstündən - ölüm qurğusu Çarmıxa mıxlanır.

Təkrarçılıq olmasın, bir daha izah edirəm, Çərxi Fələkdə, edama məhkum olmuş insanı çarmıxlamaq qeyri-mümkündür, gərək o insan top kimi girdə olsung Məqalənin doğru-dürüstlüyünü təsdiqləyən materialları əlavə edirəm:

1. Gene D.Matlokun “Ey dünya insanları, hepiniz türksünüz” kitabı.
2. Eramızdan əvvəl İssikul gölündən tapılan üzərində Çərxi-Fələk təsviri olan daş.
3. İsus Xristosun ölüm qurğusu - Çarmıx.